

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


#centrul depresă

Comunicate de presa
Evenimente
Conferinte de presa
Stiri
Media index
Cont nou
Autentificare

Tweet

Astăzi este Ziua Internațională a Persoanelor Dispărute

#Social #Bucuresti

Astăzi este Ziua Victimelor Dispărute sau Ziua Internațională a Dispăruților. Scopul remarcării acestei zile este de a educa publicul cu privire la soarta persoanelor dispărute ale căror drepturi au fost încălcate.

În consecință, statele membre ale Zilei Internaționale a Persoanelor Dispărute, o serie de organizații internaționale și neguvernamentale organizează diverse evenimente pentru a atrage atenția tuturor asupra soartei celor dispăruți.

## Rumıniya mətbuatı ermənilərin insanlığa qarşı cinayətləri barədə yazır

2

SƏS

№ 157 (6840)

1 sentyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Qüdrətli dövlətin uğur düsturu və nailiyyətləri

3




*Prezident İlham Əliyevin "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir*

# Makronun zəngi ilə bağlı

## MARAQLI MƏQAMLAR VƏ NİYYƏTLƏR



4

## Hikmət Hacıyev: "Yoldan bu formada imtina yalnız və yalnız rasizmdir"



4

## "Dünyada həllini tapa bilməyən taxıl böhranı hökm sürür"



11

## İqbal Ağazadə Əli Kərimli və İlqar Məmmədovu ideya oğurluğunda günahlandırdı



14

## Teleskopla, yoxsa mikroskopla...



13

## Erməni siyasətçiləri ölkəni məhvə sürükləyir



14

# Azərbaycan zəngin enerji resurslarına malikdir

*Prezident İlham Əliyev "Total Energies" şirkətinin baş icraçı direktorunu qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.

Görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.



## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

* * *

Zəfər Qəzənfər oğlu Qurbanov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilib. SİA xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

* * *

İlqar Akif oğlu Mahmudov Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. SİA xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

# "Humanitar vəziyyət"lə bağlı iddialar siyasi manipulyasiyadan başqa bir şey deyil

*Azərbaycan XİN Nikol Paşinyana cavab verdi*




Avqustun 31-də hökumət iclasında çıxışı zamanı növbəti dəfə Azərbaycanı "soyqırımı" həyata keçirməkdə təqsirləndirən baş nazir Nikol Paşinyanın heç bir əsas olmadan bu kəlməni bu qədər ucuzlaşdırması Ermənistanın məsuliyyətsiz manipulyasiya fəaliyyətinin təzahürüdür. AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistanın baş nazirinin həmin iclasda səsləndirdiyi iddialara dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində bildirilib.

Ehtiyac olacağı təqdirdə erməni sakinlərə yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifinə qarşı çıxan ermənilərin bəzi nümayəndələrinin təxribatçı addımlarına etiraz etmək əvəzinə, Azərbaycanın erməni sakinləri ac saxladığı ilə təqsirləndirən baş nazirə xatırlatmaq istərdik ki, hazırda, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam-Xankəndi istiqamətinə göndərilmiş yük avtomobilləri ərazidə Xankəndiyə keçidi gözləyir. Erməni tərəfinin əgər həqiqətən aparılan yüklərə ehtiyacı olsaydı, onlar sülhməramlı kontingent tərəfindən yolun bloklanmasını tələb edərək bu yüklərin əraziyə keçidinə mane olmazdılar. Erməni sakinlərin yanaşması bir daha göstərib ki, Ermənistanın və erməni sakinlərin bəzi nümayəndələrinin "humanitar vəziyyət"lə bağlı iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyil.

Laçın yolunun birtərəfli qaydada açılması və erməni sakinlərin qovulması planları barədə iddiaya gəldikdə bildirmək istərdik ki, hazırda erməni sakinlərin "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsindən hər iki istiqamətdə keçidinə şərait yaradılır və Azərbaycan tərəfinin bölgədə etnik təmizləmə siyasəti həyata keçirməkdə təqsirləndirilməsi absurddur.

Görünür, 30 ilə yaxın müddətdə nəinki işğal etdiyi Azərbaycan ərazilərindən, hətta 1980-ci illərin sonunadək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı soyqırımı, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirən Ermənistan tərəfi hər bir dövlətin eyni yanaşma tətbiq etdiyini və eyni anlayışa sahib olduğunu düşünür.

Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən Ermənistanın baş naziri yaxşı olardı ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətini də dəstəkləsin və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı müdaxilələrdən çəkinsin.

Ümidvarıq ki, Ermənistan tərəfi postmünaqişə dövründə bölgədə formalaşmış reallıqları düzgün qiymətləndirəcək və sülhün bərqərar olunması üçün Azərbaycanla danışıqlarda konstruktiv mövqe sərgiləyəcək", - deyə XİN-in şərhində vurğulanıb.

# Rumıniya mətbuatı ermənilərin insanlığa qarşı cinayətləri barədə yazır



De asemenea, conform informațiilor transmise de Ministerul Apărării al Republicii Azerbaidjan, a fost identificată identitatea a 2908 persoane, inclusiv militarii dispăruți, care au murit în războiul patriotic care a început în 2020 și a durat 44 de zile. Trupurile lor au fost predate familiilor lor. Cu toate acestea, căutarea celor 6 militari azerbaidjeni dispăruți este încă în desfășurare.

În plus, în timpul Primului Război din Karabah, 1480 de persoane au fost eliberate din captivitatea armeana. 183 de cadavre au fost exhumate din mormintele a 191 de martiri necunoscuți în 21 de cimitire situate în 13 orașe diferite.

În același timp, Azerbaidjanul lucrează pentru a atrage atenția globală asupra problemei dispăruților și a ostaticilor la nivel internațional. La inițiativa Azerbaidjanului, o rezoluție privind „persoanele dispărute" este adoptată în Adunarea Generală a ONU la fiecare doi ani. Azerbaidjanul este, de asemenea, principalul inițiator al rezoluției „Cu privire la eliberarea femeilor și copiilor luați ostatici în timpul conflictelor armate" adoptată de Comisia ONU pentru Statutul Femeii.

**Dr. Huseyn N. Najafov, Ambasador Extraordinar și Plenipotențiar al Republicii Azerbaidjan în România**

***Rumıniyanın "Centru de Presa" nəşri Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun "Bu gün Beynəlxalq İtkinlər Günüdür" sərlövhəli məqaləsini yayıb.***

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3 min 890 nəfər Azərbaycan vətəndaşının itkin düşmüş şəxs kimi qeydiyyata alındığı bildirilir. Vurğulanır ki, Ermənistan bir çox beynəlxalq hüquq normalarını kobud şəkildə pozub. Müharibə qaydalarına zidd olaraq, mülki əhali qorunmayıb, əksinə, onlar girov götürülüb. Bir çox hallarda əsir və girovlara ağlasığmaz işgəncələr verildikdən sonra öldürülüb və işgəncələrin izlərinin itirilməsi məqsədilə onların meyitləri belə Azərbaycan tərəfinə təqdim edilməyib.

Bildirilir ki, bu işgəncələri həyata keçirən ermənilər tarixdə misli görünməmiş Ballıqaya, Qaradağlı, Xocalı və Ağdaban qətliamlarının müəllifi olub. Ermənilər bununla da itkin düşmüş vətəndaşlarımızın qanun qarşısında şəxsiyyət kimi tanınmaq, azadlıq, toxunulmazlıq və yaşamaq hüquqlarını pozublar.

Məqalənin sonunda diqqətə çatdırılır ki, Azərbaycan beynəlxalq səviyyədə itkin düşmüş və girov götürülmüş insanlar məsələsinə qlobal diqqəti cəlb etmək məqsədilə iş aparır. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında "İtkin düşmüş şəxslər" ilə bağlı iki ildən bir qətnamə qəbul edilir. Azərbaycan eyni zamanda BMT-nin Qadınların Statusu üzrə Komissiyasında qəbul edilən "Silahlı münaqişələr zamanı girov götürülmüş qadınlar və uşaqların azad edilməsi haqqında" adlı qətnamənin əsas təşəbbüskarıdır.



#centrul depresă

Comunicate de presa
Evenimente
Conferinte de presa
Stiri
Media index
Cont nou
Autentificare

Tweet

**Astăzi este Ziua Internațională a Persoanelor Dispărute**

#Social #Bucuresti

**Astăzi este Ziua Victimelor Dispărute sau Ziua Internațională a Dispăruților. Scopul remarcării acestei zile este de a educa publicul cu privire la soarta persoanelor dispărute ale căror drepturi au fost încălcate.**

În consecință, statele membre ale Zilei Internaționale a Persoanelor Dispărute, o serie de organizații internaționale și neguvernamentale organizează diverse evenimente pentru a atrage atenția tuturor asupra soartei celor dispăruți.

# Qüdrətli dövlətin uğur düsturu və nailiyyətləri




*Prezident İlham Əliyevin "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir*

***Bu gün son 20 ildə Azərbaycan Prezidenti İlham Əliyevin "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir ki, bunun nəticəsində biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik».***

büdcəyə yenidən baxmağa və dürüstləşmə aparmağa imkan verdi. Dövlətimizin başçısı hazırda büdcəmizin 36 milyard manatdan çox olduğunu xüsusi vurğulayaraq əlavə etdi ki, bu, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra etməyə, həm azad edilmiş torpaqlarda geniş quruculuq işlərini aparmağa və həm də hərbi gücümüzü artırmağa imkanlar yaradır.

Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. "Müzəffər Ali Baş Komandan İlham Əliyev postmünaqişə dövrünün hədəflərini açıqlayarkən hərbi qüdrətimizin artırılmasını xüsusi qeyd etdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Ordumuz həm döyüş qabiliyyəti, həm də silah və texnika ilə təchizat baxımından daha da güclü olacaq. Dövlətimizin başçısı bir daha bildirdi ki, iki istiqamət üzrə - hərbi potensiala və azad edilmiş torpaqların qovuşmuş olur. Çünki iqtisadi asılılığı olan ölkələr heç vaxt müstəqil siyasət yürüdə bilməzlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və siyasi müstəqillik qazanmış azsaylı ölkələrdəndir. İlin altı ayının sosial iqtisadi göstəricilərinin ildən-ilə artaraq tərəqqiyə doğru aparır.

"Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir",-deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır Qeyd olunmuşdur ki, cari ilin altı ayında əsas istiqamətlər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

### "BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURURUQ, YENİDƏN QURMALIYIQ"

Prezident İlham Əliyev müşavirədəki çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirib. O, bildirib ki, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin edilib. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndləheç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Göründüyü kimi, bütün bunlar Azərbaycanın böyük iqtisadi imkanlara malik olduğunu təsdiqləyir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyevin bir daha Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyi dəstəkləndi. Bir daha sübut olundu ki, ümumilikdə Azərbaycan üzv olmadığı planformalardan heç vaxt kənarda qalmır. Və qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasındadır. Və qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

Bax, budur müasir Azərbaycan həqiqətləri. Bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır.






"Əsl siyasət konkret, real iş görməkdir" – deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" – ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir.

Təkcə cari ilin ötən dövrünün reallıqlarına diqqət yetirsək, möhkəm təməlin uğurların davamlılığında rolunu aydın şəkildə görərik. Belə ki, iyulun 11-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Dövlətimizin başçısı onu da qeyd edib ki, iqtisadi və maliyyə imkanlarımızın genişliyi hər bir sahədə davamlı uğurlara nail olmaq üçün zəruri tədbirlərin görülməsinə stimul verir. Maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi və digər amillər ilin ortasında bərpasına nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. Bu siyasət ölkəmizin qüdrətini artırır. Çünki bu gün dünyada güc amili ön plandadır. Son iki il yarımın reallıqları bir daha təsdiqlədi ki, heç kim Azərbaycanın iradəsinə təsir edə bilməz. Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və bundan sonra belə cəhdlər də olmayacaq.

Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadə etdiyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" ifadəsi müşahidə etdiyimiz genişmiqyaslı bərpa-quruculuq işləri ilə bir daha təsdiqini tapır.

Bir sözlə...

### DÜZGÜN İQTİSADİ SİYASƏT ÖLKƏNİ ANCAQ TƏRƏQQİYƏ DOĞRU APARIR

Bu real faktordur ki, ölkə iqtisadi cəhətdən müstəqil olanda, siyasi müstəqilliyə də rinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər artıq burada bərpa olunan beş yaşayış məntəqəsində vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar.

Bütövlükdə, Böyük Qayıdış Proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İşğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xususi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

Dövlətimizin başçısı onu da söyləyib ki,

Bax, budur müasir Azərbaycan həqiqətləri. Bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır.

Beləliklə, göstərilən rəqəmlər bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyevin çevik, qətiyyətli və düzgün qərarlar qəbul etməsinin məntiqi nəticəsidir ki, ölkəmiz artıq son 20 ildə hər bir çətinlikdən uğurla, az itki ilə çıxmağa nail olur və bundan sonra da Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirəcəkdir. Çünki hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtisadiyyatın yüksək olmasıdır.

***RƏFİQƏ HÜSEYNOVA***



# Hikmət Hacıyev: “Yoldan bu formada imtina yalnız və yalnız rasizmdir”

*Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev xarici jurnalistlərə açıqlamasında qeyd edib ki, Ermənistan və qondarma kriminal rejim yol mövzusunu məqsədyönlü şəkildə siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər: “Biz diplomatik korpusun nümayəndələri ilə avqustun 15-də Ağdam-Xankəndi yolunun texniki imkanları və çatdırılma qabiliyyəti ilə yerində tanış olmuşduq. Hələ o zaman diplomatik korpusun nümayəndələri bir daha şahid oldular ki, Ağdam-Xankəndi yolunun böyük ötürücülük qabiliyyəti var və bu yol daha səmərəlidir. Bu yol düzənlik ərazidən keçərək Azərbaycanın əsas hissəsi ilə Xankəndi şəhərini və Qarabağın digər bölgələrini əsaslı şəkildə əlaqələndirmək imkanlarına malikdir. Təəssüflər olsun ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı, bu günə qədər də dəstəkləməyə davam etdiyi qondarma kriminal rejim tərəfindən yenə də məqsədyönlü şəkildə siyasi manipulyasiyalar, siyasi möhtəkirlik məqsədilə bu yolun açılmasına imkan verilmir”.*

H.Hacıyev deyib ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolunun fəaliyyətdə olduğu və bu yol ilə istənilən yüklərin Xankəndinə və ətraf ərazilərə çox qısa müddət ərzində çatdırılması təmin oluna biləcəyini dəfələrlə bəyan edib: “Bu yoldan bu şəkildə imtina edilməsini biz yalnız rasizm və diskriminasiya kimi qiymətləndirə bilərik. Yoldan bu formada imtina yalnız və yalnız rasizmdir. Azərbaycan yolları açaraq reinteqrasiya prosesini başlamaq niyyətindədir. Bu reinteqrasiya prosesinin tərkib hissəsi olaraq Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin hüquqlarını və təhlükəsizliyini, eyni zamanda, onların öhdəliklərini Azərbaycan Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sənədlər əsasında təmin etməyə hazırdır. Amma görürük ki, onlar yol mövzusunu məqsədyönlü şəkildə siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər. Ermənistan tərəfindən də məqsədyönlü şəkildə bu siyasətə dəstək verilir.

Azərbaycanın Qızıl Aypara Cəmiyyəti ərzaq yüklərini Ağdam-Xankəndi yolunun Əsgəran yolu ilə birləşmə məntəqəsinə gətirib. Separatçılar yenə də rasizm siyasətinin bariz təzahürü olaraq, bu məmulatların qəbul edilməsinə qarşı çıxış edirlər. Bu, bir daha onu göstərir ki, burada məqsəd reinteqrasiyaya yox demək və qanunsuz statusu saxlamaqda davam edirmək, bu proseslərdən yalnız siyasi manipulyasiya məqsədləri üçün istifadə etməkdən ibarətdir.

Rusiya sülhməramlıları ilə Azərbaycan tərəfinin danışıqlarında bu yüklərin Rusiya sülhməramlılarının maşınlarına daşınaraq, onlar vasitəsilə aparılması məsələsinin müzakirə mövzusu olduğunu vurğulayan H.Hacıyev deyib ki, KİV-lərdə və sosial şəbəkələrdə olan məlumatlar da göstərdi ki, təşkil olunmuş aksiyalar vasitəsilə buna mane olmağa cəhd göstərirlər: “Bu yüklərin bura çatdırılması bir daha Azərbaycanın niyyətinin göstəricisidir. Amma yüklərin qəbul edilməməsi və imtina edilməsinə görə də məsuliyyət tam şəkildə qondarma rejimin və Ermənistanın üzərinə düşür. Onlar da bu manipulyativ prosesdə öz funksiyalarını və rollarını oynamaqda davam edirlər. Beynəlxalq ictimaiyyətin nümayəndələri, Azərbaycanda akkrediyasiya olunmuş dilopmatik korpusun münayəndələri bir daha görürlər ki, burada yalançı təbliğat siyasəti aparılır. Təəssüflər olsun ki, bəzi Qərb media resurslarında bu faktlara və mövcud vəziyyətə yalan şəkildə don geyindirmək cəhdləri də var. Bu prosesdə, eyni zamanda, bəzi korrupsioner Qərb siyasətçiləri də öz rollarını oynamaqdadırlar. Onlar tərəfindən separatizmə dəstək verilməsi və separatistlərin yaxşı və pis separatistlərə bölünməsi tendensiyalarını da görürük ki, bunlar da qəbuledilməzdir. Bir daha qeyd etmək istərdik ki, Azərbaycanın ərazisində hər hansı bir qanunsuz ərazinin, Azərbaycanın mərkəzi hökumətinin nəzarətindən kənar hər hansı bir ərazinin mövcud olması qəbuledilməzdir”.

Bəli, Azərbaycan xoşməramlı niyyət göstərərək reinteqrasiya prosesi ilə əlaqədar öz fikirlərini təqdim edir. Amma bundan imtinaya görə məsuliyyət tam şəkildə qondarma rejimi təmsil edən müharibə cinayətkarlarının üzərinə düşür. Orada yaşayan erməni əsilli sadə sakinlər həmin rejimin, bu qanunsuz hərbi xuntanın əsarəti altındadırlar. Onlar öz mövcudluqlarını bu cür aqressiv ritorika ilə, müharibə ritorikası ilə əsaslandırmağa çalışırlar və gördüyünüz kimi, bunların heç bir əsası yoxdur. Yüklər buradadır və ən tez zamanda çatdırılması təmin oluna bilər. Gələcəkdə də hər hansısa yüklərin daşınması üçün Ağdam-Xankəndi yolu bütün texniki imkanlara malikdir.

İnanırıq ki, diplomatik korpusun nümayəndələri gözləri ilə gördükləri bu faktları öz ölkələrinin aidiyyəti orqanlarına çatdıracaqlar. Bu, ermənilərin və onların bəzi havadarlarının yaratdığı və yaratmağa çalışdığı yalan mühitinin növbəti darmadağın edilməsi faktıdır.

# “Bil Kesidi özü beynəlxalq hüquqa zərbə vurur”

***“Müşahidələr deməyə əsas verir ki, ABŞ qanunverici hakimiyyəti özünün əsl fəaliyyət istiqamətindən daha çox lobbi maraqlarının həyata keçirildiyi mərkəzə çevrilməkdədir. O cümlədən də erməni lobbisi ilə əməkdaşlıq edən xeyli sayda konqresmen və senatorlar mövcuddur. Sual yaranır, ermənilər ABŞ-də seçkilər zamanı həlledici gücdürmü? Təbii ki, xeyr, ermənilər ən sıx yaşadıqları regionlarda belə səs hüquqları baxımdan, ümumiyyətlə, təsirsizdirlər.***



Belə olan halda lobbiçiliyin yalnız bir məqsədlə, maddi maraq naminə həyata həyata keçirilməsi mümkündür. Elə ABŞ mediasında senator və konqressmenlər, habelə onların ailə üzvləri ilə bağlı, çoxsaylı davamlı maliyyə qalmaqalları real durumu bir daha üzə çıxarır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Bəhruz Məhərrəmov deyib.

Deputat sözlərinə davam edərək bildirib ki, senator Bil Kesidinin də Azərbaycanın Qarabağı “blokadaya alması” barədə bəyanatı, Roma Statutunun 7-ci maddəsinə istinad edərək ”Azərbaycanı yeməkdən silah kimi istifadə etməklə, insanlığa qarşı cinayət törətməkdə” ittiham etməsi muzd qarşılığında fəaliyyətdən başqa bir şey deyil: ”Bil Kesidi üçün Roma Statutu önəmlidirsə, öncə ABŞ dövlətinin özünə çağırışlar etməli, İraq, Əfqanıstan, Suriyada yaşanan çoxsaylı cinayətlərdən başlamalıdır. Yaxud bu muzdlu siyasətçinin bir gecədə 613 müdafiəsiz insanın məhz azərbaycanlı olduğuna görə işgəncə ilə öldürülməsində ehtiva olunan Xocalı soyqırımını görməzdən gələrək Roma Statutuna istinad etməsi riyakarlıq, 30 il davam edən işğal və təcavüzə göz yumub bu gün separatizmə dəstək vermək mənəviyyatsızlıqdır.

Əslində bu kimi siyasi mövqe tutaraq bölgədə sülh və təhlükəsizliyə zərbə vurmaqla Bil Kesidi özü beynəlxalq hüquqa zərbə vurur, Qarabağın erməni sakinlərində yanlış eyforiya yaradaraq onları məhvə sürükləyir”.

***Ləman Sərraf***

# Türkiyə mediasında Laçın həqiqətlərindən bəhs edilib

Türkiyənin https://www.manisameydangazetesi.com.tr xəbər portalında “Laçın, ay Laçın” sərlövhəli məqalə yayımlanıb. AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan Dərnəklər Dostluğu Federasiyasının Dil Tarixi bölməsinin rəhbəri, yazar Seyfettin Ayakyayın qələmə aldığı məqalədə Azərbaycanın Laçın yolu ilə bağlı Ermənistanın dünya ictimaiyyətini aldatmağa cəhd göstərməsindən bəhs edilib.




Türkiyə Xarici İşlər Nazirliyinin bu məsələ ətrafında yaradılmış süni hay-küylə bağlı Azərbaycanın mövqeyini tam dəstəklədiyi diqqətə çatdırılıb. Müəllif bildirib ki, həmin bəyanatda Laçın yolunda Azərbaycana qarşı tənqidlərin əsassız olduğu, Azərbaycan tərəfinin Laçın vasitəsilə tibbi təxliyənin təmin edilməsi və irrasional yüklərin daşınması üçün digər münasib marşrutların ayrılması üçün səy göstərdiyinin qeyd edildiyi vurğulanıb. Türkiyə XİN-in Ermənistanı təcavüzkar addımlardan çəkinməyə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımağa, Qarabağda yaşamaq istəyən erməni xalqının ehtiyaclarını ödəmək üçün həm Ağdam-Xankəndi, həm də digər alternativ yollardan istifadəyə, Azərbaycanın erməni əhalisi ilə reinteqrasiya səylərini dəstəkləməyə çağırdığı bildirilib.

Diqqətə çatdırılıb ki, Laçın yolu ilə bağlı Ermənistanın təxribatçı yalanına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyi rəsmi İrəvanı “BMT Təhlükəsizlik Şurasını manipulyasiya kampaniyası vasitəsinə çevirməkdə cəhdində” ittiham edib.

Müəllif bildirib ki, Azərbaycan əleyhdarlarının qərəzsizliyinə, ədalət hissinə artıq heç kim inanmır. O, həmin qüvvələrə Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətləri, o cümlədən Zori Balayanın azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə dəhşətli etirafını xatırladıb. “...bu gün Qarabağda azərbaycanlıların kütləvi qəbiristanlıqlarının üstü açılıb. Ermənilər hələ də narkotiklərin daşınması üçün ictimai yaşayış yerlərində gizli şəkildə minalar qoyurlar... Soruşmaq lazımdır: 30 il harada gizlənmisiniz?”.

Laçının qədim Azərbaycan torpağı olduğunu vurğulayan müəllif 10 il sədri olduğu Manisa-Azərbaycan Mədəniyyət Dərnəyi tərəfindən illər öncə təşkil olunan konserti xatırladıb. O, 500 nəfərin qatıldığı həmin konsertdə Azərbaycanın məşhur opera ifaçısı Lütfiyar İmanovun “Ay Laçın” mahnısını oxuyarkən konsertin “ağlaşma yerinə” çevrildiyini qeyd edib: “Laçın ifası 1914–1920-ci illərdə vətənlərindən, İrəvandan, Gümrüdən gəlmiş ailələrin ahnaləsi ilə inildəyirdi...”.

Məqalənin sonunda xəbər verilib ki, TADDEF-in təşkilatçılığı ilə Türkiyənin müxtəlif şəhərlərindən olan 41 jurnalist Azərbaycan jurnalistləri ilə birlikdə mətbuat konfransları keçirəcək və Qarabağ bölgəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdıracaq.




# Afrika uğrunda yeni döyüş

## Priqojinin ölümündə Afrika izi

***Tver vilayətində baş vermiş təyyarə qəzasında Yevgeni Priqojinin və "Vaqner PMC"-nin hərbi rəhbərlərindən biri Dmitri Utkinin həlak olması Afrikadakı vəziyyətə və Rusiyanın bu qitədəki maraqlarına ciddi təsir göstərə bilər. Həmin gün Almaniyanın ZDF televiziyasının İkinci Kanalında televiziya moderatoru Markus Lanz Almaniyanın Moskvadakı keçmiş səfiri Rüdiger fon Fritşlə Vaqner PMC ətrafında baş verən hadisələrdən danışıb.***



Fon Fritşin fikirlərinin əhəmiyyəti təkcə onun 2019-cu ilə qədər Moskvada olduğu müddətdə Rusiya haqqında məlumatlı olmasından deyil, həm də əvvəlki illərdə Almaniyanın Xarici Kəşfiyyat Xidmətində (BND) bu xidmətin rəis müavini vəzifəsində işlədiyi dövrdən irəli gəlir. O qeyd edib ki, həm PMC əməkdaşları, həm də Priqojinin özü Rusiya rəhbərliyinə xaricdə əvəzsiz yardımlar göstəriblər. Vaqner PMC-nin hərbi rəisi adlandırdığı Dmitri Utkinin də Priqojinlə birlikdə ölümünə də ilk diqqət çəkən o oldu və onun ölümünün bu hərbiləşdirilmiş birləşmələr üçün ağır zərbə olduğunu vurğulayıb.

Avqustun 21-i axşam Yevgeni Priqojin iyunun sonundakı üsyana cəhddən sonra ilk dəfə Vaqnerə aid Telegram kanalında videomüraciət yayımladı. Kadrlarda o, əlində avtomat olan kamuflyaj formasında dayanıb. Onun arxasında üfüqdə alçaq ağaclar və insanların olduğu bir neçə maşın olan boş bir ərazi var. Priqojin Afrikada olduğunu açıq şəkildə bildirdi və qitənin azadlığı uğrunda mübarizə aparacağı hərbçiləri işə götürdüyünü söylədi. O, "Rusiyanı daha da böyük, Afrikanı isə daha da azad etmək niyyətində olduğunu" deyib. Rusiyanın internet portalı səs yazısının harada aparıldığını müəyyənləşdirməyə çalışıb və bunun Malinin şimalı olduğu qənaətinə gəlib.

Priqojinin hazırda Malidə qalmasını iyulun sonunda hərbi çevrilişin baş verdiyi qonşu Nigerdə baş verən hadisələrlə əlaqələndirmək olar. Üsyançılar ölkədə komendant saatı tətbiq etdilər, Konstitusiyanın fəaliyyətini dayandırdılar və partiyaların hər hansı siyasi fəaliyyətini qadağan etdilər. İyulun 28-də general Abdurahman Tchiani Nigerin yeni prezidenti seçilib.

Amma əsas odur ki, yeni hakimiyyət artıq avqustun 4-də Fransadan Parislə razılaşmaları denonsasiya edərək 30 gün ərzində 1,5 min fransız əsgərini Nigerdən çıxarmağı tələb edib. Bundan əvvəl Niger Fransaya uran tədarükünü dayandırmışdı. Amerikanın "Politico" nəşri yazır ki, Nigerdə hakimiyyəti ələ keçirmiş hərbi xuntanın Fransaya uran tədarükünü qadağan etməsi təkcə bu ölkənin deyil, bütün Aİ-nin enerji təhlükəsizliyi ilə bağlı narahatlıqları artırır. Fransanın nüvə sənayesi üçün tələb olunan uranın 35-40%-i Nigerin payına düşür və bu, bu Afrika ölkəsində fəaliyyət göstərən Fransanın Areva şirkəti vasitəsilə təmin edilir. Bundan başqa, Nigerdəki hadisələr Brüsselin Moskvaya qarşı yeni sanksiyalar tətbiq etmək imkanlarına ciddi təsir göstərəcək.

Buna əsaslanaraq, Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyinin (ECOWAS) konstitusiya quruluşunu bərpa etmək və hakimiyyəti prezident Məhəmməd Bazuma qaytarmaq məqsədi ilə Nigerə hərbi müdaxilə planı hazırlaması təəccüblü deyil. Burkina Faso və Nigerə qonşu olan Mali Nigerə hərbi müdaxiləni müharibə elanı kimi qəbul etmək qərarına gəlib.

Amerikanın AP xəbər agentliyinin avqustun 6-da Niger paytaxtından verdiyi məlumata görə, hərbi xunta yardım üçün Vaqner PMC-yə müraciət edib, çünki "Qərbi Afrika regional blokunun mümkün hərbi müdaxiləsi üçün son tarix yaxınlaşır". Bu tələb çevrilişin təşkilatçısı general Salifu Modinin qonşu Maliyə səfəri zamanı gəlib və orada Vaqner üzvü ilə təmasda olub. Bu barədə agentliyə jurnalist və Soufan Mərkəzinin baş elmi işçisi Vasim Nəsr məlumat verib. Onun sözlərinə görə, üç malili mənbə və bir fransız diplomatı ilk dəfə "France 24" telekanalının xəbər verdiyi görüşü təsdiqləyib: "Onların Vaqnerə ehtiyacı var, çünki bu, onların hakimiyyətini saxlaması üçün zəmanət olacaq", - deyə o, PMC-nin bunu nəzərdən keçirdiyini bildirib. Adının açıqlanmasını istəməyən Qərb hərbi rəsmisi AP-yə deyib ki, o da xuntanın Malidə yardım üçün Vaqnerə müraciət etdiyini eşidib.

Heç kimə sirr deyil ki, Wagner PMC-nin Afrikadakı hərəkətləri ABŞ-da da ciddi narahatlığa səbəb olub. Britaniyanın BBC-yə istinadən verdiyi məlumata görə, ABŞ dövlət katibi Entoni Blinken ABŞ-ın Saheldə Wagner PMC-lərin görünməsindən narahat olduğunu bildirib. O, Vaqnerlilərin Nigerdəki qeyri-sabitlikdən istifadə etməyə çalışacağını təklif etdi. Təsadüfi deyil ki, Ağ Ev artıq Afrikada Vaqner PMC-ləri ilə mübarizə aparmaq üçün ABŞ Konqresindən 200 milyon dollar istəyib.

Bu baxımdan uzun illərdir Almaniya hökuməti üçün analitik mərkəz kimi fəaliyyət göstərən Berlin Elm və Siyasət Fondunun nəşrlərinə diqqət yetirmək məntiqlidir. Təxminən bir ay əvvəl onun saytında "Tərəfdaşlar axtarılır: əmtəə sektorunda yeni ittifaqlar haqqında" ümumi başlığı ilə məqalələr toplusu dərc olunub. Onlar bildirirlər ki, son vaxtlar Almaniya hökuməti və Aİ rəhbərliyi mövcud əlaqələri dərinləşdirmək və tədarükləri şaxələndirmək üçün əmtəə sektorunda strateji tərəfdaşlığın yaradılmasına mərc edirlər. Əvvəla, bu, Çindən asılılıqdan qurtulmaq üçün edilir, çünki Aİ-nin xammal təchizatında mərkəzi yeri məhz bu ölkə tutur. Bu cür tərəfdaşlıqlar müxtəlif formalarda inkişaf etmişdir və uran və digər faydalı qazıntıların çıxarılması sahəsində Fransa-Nigeriya əməkdaşlığı buna misaldır. Müəlliflərin fikrincə, bu cür tərəfdaşlıqlar Qərb üçün lazım olan xammala malik olan ölkələrin hökumətlərinin sabitliyinə və orada Qərbin insan hüquqları standartlarının təbliğinə töhfə verməlidir.

***Ardı Səh. 6***

# Afrika uğrunda yeni döyüş




Əvvəli-Səh-5

Aydındır ki, vaqnerçilər belə niyyətlərin həyata keçirilməsinə mane olublar. Fransanın “Monde” qəzeti bununla bağlı qeyd edib ki, “Ukraynada, Suriyada, Afrika qitəsində, Cənubi Amerikada, Avropa və ABŞ-da silahların köməyi ilə, təbliğat fabrikləri ilə Priqojin Rusiya prezidentinin maraqlarına canfəşanlıqla xidmət edirdi”. Putin bəzi hökumət funksiyalarını autsorsing etməyə razılaşdı, lakin Priqojinin özünü legitimləşdirmədi. Monde hesab edir ki, bu, “Putinin tam və əlaqələndirilmiş hakimiyyət konsepsiyasına tamamilə zidd olardı”.

Yəqin ki, buna əlavə edə bilərsiniz ki, məhz PMC ”Vaqner”in fəaliyyət göstərdiyi ”boz hüquqi zona”nın olması bu zərbəni vurmağa imkan verdi.

BRİKS ölkələrinin liderləri Səudiyyə Ərəbistanı, İran, Misir, Efiopiya, Argentina və BƏƏ-ni 2024-cü ildə assosiasiyaya üzv olmağa dəvət ediblər. Yohannesburqda keçirilən bu 15-ci sammit zamanı bu barədə müzakirələr diqqət mərkəzində olub. Bütün BRIKS ölkələri (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) yeni dövlətlərin qəbulunu dəstəkləyib. Birliyin tərkibini kimin qəbul edəcəyi və nə qədər tez artırılacağı ilə bağlı fərqlər aradan qaldırılıb. Rusiya Federasiyası 2024-cü ildən onun sədri olacaq, lakin bu rol texniki xarakter daşıyır.

Cümə axşamı sammitin plenar iclası “Yohannesburq-2” adlı yekun bəyannamənin imzalanması ilə başa çatıb (birinci bəyannamə 2018-ci ildə Cənubi Afrikada da keçirilən onuncu BRİKS sammitini başa vurub). Videobağlantı vasitəsilə danışan Rusiya prezidenti Vladimir Putinin sözlərinə görə, onun təsdiqi asan olmayıb. “Biz assosiasiyanın genişləndirilməsinin birinci mərhələsi ilə bağlı konsensusa nail olmuşuq. Ondan sonra digər mərhələlər keçəcək”, - Cənubi Afrika prezidenti Siril Ramafosa mətbuat konfransında bildirib.

Əksər Qərb mediası şərhçilərinin etiraf etdiyi kimi, BRİKS-in beş hazırkı üzvünün hamısı bunu G7 kimi Qərbin dominantlıq etdiyi ittifaqlara qarşı tarazlıq kimi görürdü. Bunu BRİKS-in Dünya Bankına alternativ olaraq Şanxayda yerləşən bank yaratması da sübut edirdi. Onun məqsədi inkişaf etməkdə olan ölkələri maliyyələşdirməkdir. Qəbul edilmiş bəyannamədə deyilir: “Beşlik” öz ölkələrinin Maliyyə Nazirliklərinə və Mərkəzi Banklarına milli valyutalar əsasında ödəniş alətləri və platformalarının işə salınması imkanlarını nəzərdən keçirməyi tapşırıb. Sənəddə Birləşmiş Millətlər Təşkilatı dünya nizamının təməl daşı adlanır. Onun (eləcə də ÜTT-də və bir sıra digər beynəlxalq təşkilatlarda) inkişaf etməkdə olan dövlətlərin təmsilçiliyinin artırılması istiqamətində islahatların aparılmasının zəruriliyi qeyd edilib. Bəyannamədə insan hüquqlarının müdafiəsinə seçmə yanaşmanın qəbuledilməzliyi qeyd edilib və münaqişələrin, o cümlədən Ukraynadakı münaqişələrin danışıqlar yolu ilə həllinə hazır olduqları bildirilib.

Lakin BRİKS üzvlərinin maraqları heç də eyni deyil - sammit də bunu xatırladıb. Çinin assosiasiya ölkələri arasında ən güclü iqtisadi güc kimi mövqeyinə xüsusi diqqət yetirildi. Çin prezidenti Cinpin əvvəllər Ramafosa ilə danışsa da, sammitin ilk iclasında iştirak etməməsi ilə təəccübləndi. Onun adından ticarət naziri Vanq Ventao çıxışını oxudu. Onun əsas tezisi Qərb ekspertlərinin Çinin BRİKS-i anti-Qərb blokuna çevirmək istəməsi ilə bağlı fikirlərinə ziddir. Prezident qeyd edib ki, birləşmənin məqsədi qarşıdurmada tərəf tutmaq deyil.

Amma “beşlik” ölkələrinin liderləri öz çıxışlarında, rəsmi görüşlərin pərdəarxası və ekspert birliyində təşkilatın gələcəyi ilə bağlı fikirləri açıqladıqdan sonra BRİKS-in “işə qəbul edənlərin” hansı xəttə keçəcəyi ilə bağlı müzakirələr başlayıb. “New York Times” qəzetinin yazdığına görə, Səudiyyə Ərəbistanının qoşulması assosiasiyaya daha böyük iqtisadi çəki verəcək. Çinlə əlaqələri intensiv şəkildə inkişaf etdirdi və ABŞ ilə uzun müddətdir mövcud olan təhlükəsizlik əlaqələrinin əksinə olaraq, müstəqil xarici siyasət nümayiş etdirdi. Fevral ayında Pekinin vasitəçiliyi ilə səudiyyəlilər İranla diplomatik münasibətləri bərpa ediblər. Ukraynaya dəstək verməyə çağıran Amerikanın təzyiqlərinə baxmayaraq, krallıq digər ərəb ölkələri kimi qəti şəkildə neytral qalıb.

Hindistan, Braziliya və Çin Latın Amerikasının üçüncü ən böyük iqtisadiyyatı olan Argentinanın qoşulmasını müdafiə ediblər. Problem ondadır ki, ölkə iqtisadi böhran yaşayır. Onun valyutası düşür, 12 ay ərzində inflyasiya 113% təşkil edib. Lakin Argentinanın əsas iqtisadi tərəfdaşı olan Braziliya BRİKS-in kritik vəziyyətdən çıxmağa kömək edəcəyi ümidi ilə onun üzvlüyünü dəstəkləyib.

Dünyada ikinci ən böyük qaz ehtiyatına malik olan İran, qeyri-Qərb dövlətləri ilə əlaqələri gücləndirmək ümidi ilə iyun ayında üzv olmaq üçün müraciət etmişdi. Onun iqtisadiyyatı da inflyasiyadan əziyyət çəkir, ABŞ sanksiyalarının itkiləri ilə üzləşir. Ölkə Çinə endirimli neft satışı, həmçinin BRİKS üzvləri ilə ticarətin genişləndirilməsi sayəsində ayaqda qalır.

Misir ABŞ-dan ən çox yardım alan ölkələrdən biridir. Amma bu, onun Rusiya Federasiyası və Çinlə möhkəm əlaqələr saxlamasına mane olmur. Rusiya Misirdə ilk atom elektrik stansiyasını tikir, Çin dövlətin yeni paytaxtını tikir. Amma nə ABŞ, nə də Aİ ölkələri Afrikadakı nüfuzlu tərəfdaşını itirmək istəməyərək Misirə dəstəyi azaltmağı düşünmür.

Zəngin neft hasil edən BƏƏ ölkəsi həm də Qərb və Şərqlə əlaqələri saxlamaqda mahirdir. Onun BRIKS-də iştirakı assosiasiyaya daha böyük iqtisadi çəki verəcək. Efiopiyanın qəbulu, əksinə, siyasi mülahizələrdən irəli gəlir. Afrikanın bu ən qədim müstəqil ölkəsi vətəndaş müharibəsi nəticəsində zəiflədi. Amma onun BRİKS-ə qoşulması onu göstərəcək ki, afrikalıların maraqlarına xüsusi diqqət yetiriləcək.

Rusiya Elmlər Akademiyasının Çin və Müasir Asiya İnstitutunun elmi direktoru Aleksandr Lukin verdiyi müsahibədə qeyd edib: “BRİKS üzvləri arasında bəzi keçilməz fikir ayrılıqlarından danışmaq düzgün deyil.Assosiasiyanın bütün üzvləri Qlobal idarəçilik sistemində qeyri-Qərb ölkələrinin daha çox rol oynamasını müdafiə etmək. Bu məsələdə onların arasında heç bir fikir ayrılığı yoxdur. Rusiya sədr olacaq, lakin bu rol rotasiyaya tabedir, texnikidir. Bu heç bir fayda vermir. Xüsusən də BRİKS-ə daxil olmayan Ukraynanın bununla heç bir əlaqəsi yoxdur”.

Ali İqtisadiyyat Məktəbinin aparıcı elmi işçisi Vasili Kaşin isə bildirib ki, həmin ölkələr BRİKS üzvlərinin əksəriyyətinin qoşulmaqda maraqlı olduğu assosiasiyaya qəbul edilib. O, həmçinin qeyd edib ki, Çin və Afrika dövlətlərinin Ukrayna ilə bağlı sülh təşəbbüsləri gələcəkdə döyüş meydanında mənzərənin dəyişəcəyi təqdirdə öz bəhrəsini verə bilər.

BRİKS sammitinin nəticələrini Rusiyanın Teleqram kanallarının müəllifləri də şərh ediblər. “BRICS-ə yeni üzvlərin qəbulu üçün dünən təsdiqlənmiş rəsmi meyarlar hələ görünmür. Amma indidən bəllidir ki, Asiyanın ən böyük neft hasil edən üç ölkəsi, öz aralarındakı münasibətlərin bütün tarixən çətin xarakteri ilə birliyə yeni, daha doğrusu, əlavə keyfiyyət verəcəklər. Böyük ölçüdə onların keçmiş hegemonla mövcud və potensial ziddiyyətlərinin bir-birindən daha dərin və həll olunmaz olmasına əsaslanır”.

**V.VƏLİYEV**

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

## “Ermənistan məğlubiyyətini ört-basdır etmək üçün təxribata əl atır”

“Azərbaycanın Livan Respublikasındakı səfirliyi qarşısında törədilən vəhşilik aktının özü də Ermənistanın dövlətimizə qarşı təcavüzünün müxtəlif formalarda hələ də davam etdiyini göstərən bir faktdır. Erməni lobbisi və diasporunun hələ də belə təcavüzkar addımlara əl atması hazırda gedən proseslərdə Ermənistanın addımbaşı məğlub olduğunu göstərir. Bəllidir ki, Azərbaycan Ermənistanla münasibətləri normallaşdırmağa nə qədər cəhd göstərsə də, onlar pozucu əməllərindən əl çəkmir və bölgəyə sülhün gəlməsinə imkan vermək istəmir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.



Onun sözlərinə görə, Ermənistan həll olunmuş Qarabağ münaqişəsi və Azərbaycan vətəndaşları olmalı olan erməni sakinləri ətrafında gərginlik yaratmağa çalışır: "Lakin dünya artıq qəbul edir ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Azərbaycanın bu suveren ərazilər üzərində beynəlxalq hüquqa uyğun bütün addımları atmağa əsası var. Ermənilər də Azərbaycandan torpaq qoparmaq, Qarabağın ətrafında mübahisəli vəziyyətin ömrünü uzatmağın artıq uğursuz taktika olduğunu başa düşürlər. Buna görə də öz məğlubiyyətlərini ört-basdır etmək üçün dünya miqyasında fürsət düşdükcə təxribatçı addımlara əl atırlar”.

A.Quliyev sözlərinə davam edərək bildirib ki, Azərbaycanın Livandakı səfirliyinə qarşı erməni əsilli şəxslərin bu aksiyasının arxasında Ermənistan hakimiyyətindəki revanşist qüvvələr dayanır: ”Eyni zamanda, bu təkcə Ermənistanın deyil, onun təcavüzkar siyasətinə açıq və ya gizli şəkildə dəstək verən bütün dövlətlərin, siyasi məkanların məsuliyyətidir. Azərbaycan Qarabağ üzərində öz suverenliyini genişləndirmək üçün qanunlara uyğun olan addımlar atdıqca bəzi ölkələrin timsalında Ermənistanın yanında Azərbaycana qarşı müqavimət görürük. Məsələn, Azərbaycan öz suverenliyi çərçivəsində Qarabağdakı ermənilərə humanitar yardımın aparılmasını təkid etdiyi halda, kənardan müəyyən mexanizmləri zorla qəbul etdirmək istəyirlər. Onlar istəyir ki, ermənilərə humanitar yardım mütləq ki Laçın yolu vasitəsilə aparılsın və oradakı nəzarət-buraxılış məntəqəsini ortadan götürsünlər. Təəssüf ki, Ermənistanın bu siyasətinə açıq şəkildə Fransa və bəzi Avropa dövlətləri, o cümlədən, Rusiyadan müəyyən dairələr dəstək verir. Bütün bunlar onu deməyə əsas verir ki, xaricdəki həmin qüvvələrin Ermənistana verdikləri dəstək onu təcavüzkar addımlarında həvəsləndirir”.

***Ləman Sərraf***



# Qüdrətli Lider, yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan

## PREZİDENT İLHAM ƏLİYEV: "Bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz"

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin «Dəmir yumruq» siyasəti ilə 44 gün davam edən İkinci Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbə Azərbaycanı qalib ölkəyə çevirməklə uzun illər çəkdiyimiz məğlubiyyət acısına son qoydu, xalqımızın öz yurdunu və müstəqilliyini qorumağa, azad yaşamağa qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Döyüş meydanında, diplomatiyada, informasiya müharibəsində birlik və həmrəylik göstərən Azərbaycan xalqı Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə öz tarixi missiyasını şərəflə yerinə yetirərək işğal olunmuş torpaqları düşməndən azad etdi. Dağlıq Qarabağ öz əzəli xalqına geri qaytarıldı. Prezident İlham Əliyevin 20 il ərzində qətiyyətli və düşünülmüş şəkildə yürütdüyü siyasət öz bəhrəsini verdi və bu günlər hamımız mübarək zəfərin bir illik təntənəsini yaşayır, bütövlüyümüzün və birliyimizin sevincini bölüşürük. Böyük fəxarət və qürur hissi ilə qeyd edirik ki, haqq savaşımızda Azərbaycan regionda yeni siyasi reallığın müəllifi kimi bir daha sübut etdi ki, ölkəmizlə heç zaman güc dilində danışmaq, ona hansısa şərtləri diqtə etmək qeyri-mümkündür. Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi: «Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir". Artıq İkinci Vətən müharibəsinin qələbəsindən üç il ötür. Üç il böyük zaman kəsiyi deyil. Lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən Prezident İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Azərbaycan Prezidenti "Dəmir Yumruğ"un gücü ilə 44 günlük zəfər qələbəmizdən keçən cəmi iki il yarım ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi üç il öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq.

### AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun




bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.

Göründüyü kimi, günümüzün reallığı deməyə əsas verir ki, regionda yaranan yeni şərait ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir və Prezident İlham Əliyevin vurğuladığı kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Və arzuları gerçəyə çevirəcək Böyük Qayıdışa dair I Dövlət Proqramında əks olunan hədəf, məqsəd və vəzifələrin icrası bölgədə məskunlaşacaq əhalinin layiqli həyat şəraitini təmin edəcək və bu nəzərdə tutulan tədbirlər strateji hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir və Azərbaycan düzgün yoldadır, uğurlu gələcəyə inamla addımlayır. Bir sözlə, Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir.

### ARTIQ DİRÇƏLƏN LAÇIN, DİRÇƏLƏN QARABAĞ, DİRÇƏLƏN ŞƏRQİ ZƏNGƏZUR BİZİM GÜCÜMÜZÜ GÖSTƏRİR VƏ ONU GÖSTƏRİR Kİ, BİZ İSTƏDİYİMİZƏ HƏR ZAMAN NAİL OLURUQ

Prezident İlham Əliyev Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı deyib ki, bütün dədə-baba yurdlarından qaçqın düşənlər, o cümlədən laçınlılar öz yurdlarına qayıdacaqlar: «Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq». Dövlətimizin başçısı onu da bildirib ki, müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki bu torpaqların sahibləri bizik – qurub-yaradan Azərbaycan xalqıdır. Görülən işlər də göz qabağındadır.

Dövlətimizin başçısı "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı onu da bildirib ki, İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi: «Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir».

Bəli, bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində azad Laçın yeni inkişaf mərhələsinə qədəm qoyur, sakinlərini öz ata-baba yurdlarında xoş və firavan həyat gözləyir. Laçın ərazisində tikilməkdə olan beynəlxalq hava limanı xüsusilə böyük əhəmiyyət daşıyır. Cənab Prezident, həmçinin laçınlılara xoş müjdə də verdi. Belə ki, minlərlə insan bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq. Bu, onu göstərir ki, laçınlıların öz yurdlarında xoşbəxt həyatı o qədər də uzaqda deyil. Ən əsası isə yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına, heç bir beynəlxalq təşkilatın və ya dövlətin köməyi olmadan yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir. Onun sözlərinə görə, həyata keçirilən yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir. Bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız daha yenidən dirçələcək! .Və ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, «2023-cü il Heydər Əliyev ili» də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək. Bütün bu uğurlar isə Ali Baş Komandan, Qalib Lider, Prezident İlham Əliyev cənablarının

### SİYASİ İRADƏSİNİN GÖSTƏRİCİSİDİR

Təsadüfi deyil ki, keçdiyimiz üç ilə yaxın bir müddətdə işğaldan azad olunmuş ərazilərdə ölkəmiz tərəfindən sürətlə aparılan və bütün dünyaya nümayiş etdirilən yenidənqurma, bərpa, abadlaşdırma işləri bilavasitə Prezident İlham Əliyevin nəzarəti ilə həyata keçirilir. Dövlətimizin başçısı çıxışı zamanı 8 ay müddətində görülmüş möcüzəvi işləri nəinki laçınlıların, eyni zamanda, bütün dünyanın diqqətinə təqdim etdi, Azərbaycan xalqının əzmini nümayiş etdirdi: «Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istədadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik". Çıxışı zamanı Prezident İlham Əliyev bir daha Azərbaycan xalqına, eləcə də bütün dünyaya səslənərək bildirdi ki, xalqımız artıq bu əraziləri bütün mənfur qüvvələrdən təmizləyib və bu torpaqlarda əbədi olaraq yaşayacaqdır! Bir sözlə, bu gün ölkənin qalib və qürurlu vətəndaşı olaraq Qalib Liderimizin yaratdığı Azərbaycanımızla qürurlanılırıq və Azərbaycana qarşı istənilən təxribat, hücum "Dəmir yumruq"la əziləcək, məhv ediləcəkdir. Çünki bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz!

**RƏFİQƏ KAMALQIZI**

# Makronun zəngi ilə bağlı MARAQLI MƏQAMLAR VƏ NİYYƏTLƏR

Təhlil

***Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan Prezidenti cənab İlham Əliyevə zəng edərək müzakirələr aparması təkcə ölkə ictimaiyyəti deyil, bütövlükdə dünya ictimaiyyətinin diqqət mərkəzindədir və hər kəsi düşündürür. Azərbaycan əleyhinə mövqeyi və eləcə də ermənipərəstliyi ilə seçilən, hətta digər ermənipərəstlərdən kəskin şəkildə Ermənistanın mövqeyini, özü də haqsız mövqeyini müdafiə edən Fransa liderinin qəflətən Azərbaycan Prezidentinə zəng etməsi maraq doğurmaya bilməz. Heç kim üçün sirr deyil ki, Makronun belə bir zəng etmək təşəbbüsü hansısa niyyətlərindən irəli gəlir və elə maraq doğuran da məhz bu niyyətlərdir.***









Rəsmi Parisin məhz Cənubi Qafqaz siyasətində növbəti mərhələdə özünü necə aparacağı sözsüz ki, Makron üçün indi ən əsas müzakirə mövzusudur. Görünür, Fransa lideri bundan sonra hansı xətti seçəcəyi barədə bir qənaətə gəlmək üçün necə deyərlər, baş sındırır. Özünü bilməməzliyə, görməməzliyə vursa da belə, bunu dansa da belə, Azərbaycanın haqlı mövqeyə sahib olduğunu, eləcə də regionda söz sahibi olduğunu yaxşı başa düşən Makron rəsmi Bakı ilə müzakirələrin vacibliyini də anlayır. Bu baxımdan, onun Azərbaycan Prezidenti cənab İlham Əliyevə zəng etməsi, müzakirələr aparması anlaşılandır və hətta belə demək mümkünsə, gözlənilən idi. Xüsusən də, İrəvandan Xankəndiyə humanitar yük daşınmasını Fransa rəsmilərinin müşayiət etməsi fonunda Emmanuel Makronun zəngi heç də təsadüfi sayıla bilməz və hər halda onun hansısa müzakirələrə ehtiyac duyması bir daha özünü göstərir.

Diqqətə çatdıraq ki, Fransa prezidenti eyni gündə Ermənistanın baş nazirinə də zəng edib və şəxsən Nikol Paşinyanla da müzakirələr aparıb. Deməli, onun təşəbbüskarlığı heç də səbəbsiz deyil. Belə çıxır ki, hər iki ölkə rəhbərinə eyni gündə zəng edən Makronun hansısa istəyi peyda olub, yaxud da öz istəyini daha sürətlə reallaşdırmaq arzusu baş qaldırıb. Heç şübhəsiz ki, onun bu istəyi məhz Cənubi Qafqazla, daha dəqiq desək, Azərbaycan və Ermənistanla bağlıdır. Görünür, Fransa prezidenti daha aktiv şəkildə proseslərə qatılmaq, ən əsası isə, ilk növbədə, Azərbaycan və Ermənistan liderlərini tez və tələsik olaraq, öz vasitəçilik masası ətrafında danışıqlara cəlb etmək istəyinə, həvəsinə düşüb. Bu da əlbəttə ki, səbəbsiz ola bilməz və görəsən səbəb nədir ki, o belə əl-ayağa düşüb?

Hadisələrin gedişi göstərir ki, Fransanın ermənipərəst mövqeyi sayəsində regionda münaqişəli vəziyyət uzanmaqdadır və bunu başda elə Makronun özü olmaqla, fransızlar özləri hamıdan yaxşı bilirlər. Onu da yaxşı bilirlər ki, belə ermənipərəst mövqe nümayiş etdirməklə, Azərbaycanı öz qanuni, haqlı, ədalətli yolundan döndərə də bilmirlər. Makron dərk edir ki, Ermənistanın mövqeyini nə qədər müdafiə etsə də, ermənilərin böyük bacısı kimi onların təsibini nə qədər saxlasa da, ölkəmizə qarşı hansı formada çıxış etsə də, Azərbaycan Prezidenti cənab İlham Əliyevi öz qətiyyətli mövqeyindən geri çəkindirə bilməz. Anlayır ki, ölkə rəhbərimizin siyasi iradəsi qarşısında etdikləri əbəsdir. Amma onu da başa düşür ki, bütün bunların fonunda nəyi isə itirir və xüsusən də Cənubi Qafqazın lider ölkəsi ilə münasibətləri soyutmaqla regionda mövcudluğu barədə arzuları puça çıxarır. Deməli, niyyət bəlli olur və bu da ilk növbədə məhz regionla bağlı rəsmi Parisin planları ilə əlaqədardır.

Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, bu gün ölkəmizlə qardaş ölkənin, daha dəqiq desək, Azərbaycanla Türkiyənin müttəfiqliyi istənilən müstəvidə önəmli rol oynayır. Bu müttəfiqliyi nəzərə almamaq mümkün deyil. Çünki iki qardaş ölkənin müttəfiqliyi hər iki ölkənin gücünə güc qatmış olur. Belə bir reallıq isə təkcə hansısa Avropa ölkəsinin yox, bütövlükdə dünya ölkələrinin də diqqət mərkəzindədir və təsadüfi deyil ki, bu, hər iki ölkəni dünya miqyasında, beynəlxalq miqyasda söz sahibinə çevirib. Məhz həmin reallıq bu gün ermənipərəst mövqeyi ilə seçilən Fransanın maraqlarına heç də uyğun gəlmir və belə demək mümkünsə, elə birbaşa olaraq rəsmi Parisi narahat edir. Təsadüfi deyil ki, Fransa hər dəfə danışıqlar masasında Ermənistanın maraqları naminə nə qədər direniş göstərsə də, nə qədər çalışsa da bir nəticə hasil edə bilmir, Azərbaycan hər dəfə diplomatik qələbələrə imza atır. Deməli, rəsmi Paris məhs bu məqamı da nəzərə almaq məcburiyyətindədir və bu gün bölgədə yaranan reallıqla barışmaqdan başqa çarə qalmır. Ona görə də cəsarətlə deyə bilərik ki, Makron heç də səbəbsiz yerə Azərbaycan Prezidentinə zəng etməyib və müzakirələr aparmaq marağı da özündə bir sıra məqamları ehtiva edir ki, hansıki bu məqamlar Fransa liderinin bölgədəki reallıqlarla barışması niyyətindən xəbər verir.

Qlobal miqyasda da Fransanın vəziyyəti heç də fransızlar üçün ürəkaçan deyil. Fransa kimi bir Avropa ölkəsi demək olar ki, bir neçə istiqamətdə sıxışdırılır və bu da həmin ölkənin yalnız münaqişələrə sövq edilməsi deməkdir. ABŞ və Böyük Britaniyanın, eləcə də Rusiyanın təzyiqlərinə qarşı tab gətirmək tələb olunur. Görünür elə bu təzyiqlər fonunda da Fransa digər problemli yerlərdə, mübahisəli, münaqişəli ərazilərdə eskalasiya riski yaratmağa meyl edir və belə çıxır ki, bunu da rəqiblərinə qarşı tarazlaşdırma siyasəti olaraq qəbul edir. Deməli, rəsmi Parisin qlobal müstəvidə təcrid olunması Fransanın Cənubi Qafqaz siyasətinə təsir edir, amma bununla belə, bu Avropa ölkəsi heç də regionda istədiklərinə nail ola bilmir və fransızlar üçün qıcıq doğuran da elə məhz budur. İstədiklərinə nail ola bilməyən Fransa bu vaxta qədər sanki Azərbaycana qarşı diplomatik etiket qaydalarını nəzərə almayacaq mövqe nümayiş etdirməyi yeganə çıxış yolu, yeganə yol hesab edib. Amma bu gün görünür, fərqli bir niyyət ortada ola bilər və bəlkə də İrəvandan Xankəndiyə humanitar yük daşınmasını Fransa rəsmilərinin müşayiət etməsində məqsəd humanitar yükləri Qarabağa göndərmək yox, Azərbaycanı təxribata çəkməkdir. Müzakirələr aparmaq üçün Makronun Azərbaycan Prezidentinə zəng etməsində həm də niyyəti guya təxribata sövq etmək məqsədinin olmaması təsəvvürü yaratmaq ola bilər. Fransa liderinin özünü də, ölkəsini də regionda sülh formalaşdıran kimi göstərmək niyyəti də danılmazdır və zəng edərək müzakirələr aparmaq təşəbbüsü də həmin niyyətdən doğa bilər.

Heç şübhəsiz ki, rəsmi Bakı Parisin özünü necə göstərmək istəyindən və niyyətindən asılı olmayaraq nə Fransa dövlətinə, nə də bu dövlətin ermənipərəst liderinin Cənubi Qafqazda guya sülh şəraitinin yaranması ilə bağlı təşəbbüslər göstərməsinə inanan deyil. Müvəqqəti şəkildə mövqe dəyişkənliyi, yaxud da münasibətlərində qısa müddətlik dəyişkənlik Paris üçün, elə Emmanuel Makronun özü üçün yenilik, yaxud da qeyri-adi hal deyil. Ona görə də Azərbaycanın Ermənistanla münasibətlərinə Fransa bu və ya digər formada hadisələrə təsir edə bilməz və rəsmi Bakının mövqeyi dəyişməz olaraq qalır. Rəsmi Bakı üçün sirr deyil ki, Fransanın və Fransa prezidentinin niyyəti ilk növbədə, Azərbaycan-Ermənistan münasibətlərinə guya töhfə vermək yox, özünü belə göstərərək, beynəlxalq aləmdə rolunun olduğunu göstərmək, özünü də belə təbliğ etməkdir. Elə Emmanuel Makronun məhz Azərbaycan Prezidentinə zəng etməkdə bir niyyəti də məhz belə bir təbliğdir. Fransa lideri həm də belə bir təbliğatla məhz Rusiya sülhməramlılarının mandatı başa çatdıqdan sonra Qarabağda özünə yer etmək niyyəti güdür, amma bu o demək deyil ki, niyyəti baş tuta bilər və Makronun zəng edərək müzakirələr aparmağa maraqlı olduğunu göstəməklə niyyətlərini gerçəkləşdirəcəyinə ümid etməsi çox bəsit görünür, utopiyaya bənzəyir.

***İnam Hacıyev***





# Dalğalan, zirvələrə ucal, milli BAYRAĞIMIZ!..

***Şəhərimizin Bayıl qəsəbəsində açılışı 2010-cu il sentyabrın 1-də keçirilən qürur duyduğumuz bir meydan var: Dövlət Bayrağı Meydanı. 20000 kvadratmetr ərazisi olan meydanda ucaldılmış dayağın hündürlüyü 162 metr, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, kütləsi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Meydanda üçrəngli bayrağımız qürurla dalğalanır...***

* * *

Bu xalq dövlətinə, millətinə məxsus olan bayrağını asanlıqla yüksəklərə ucaltmayıb. Bu yolda zaman-zaman qanlar axıdılıb, igidlər, ərənlər düşmən gülləsinə tuş gəlib, Vətən yolunda şəhid olublar. Elə qırmızı rəngi şəhid qanından alan bayrağımız zirvələrdə dalğalanarkən şəhid adını da özü ilə birlikdə zirvələrə qaldırıb. Vətənimizin adını, qüdrətini, qeyrətini də həmçinin.

Azərbaycanlıların canları qədər sevdikləri üçrəngli, ulduzlu, ayparalı bayraq... Lakin bu bayrağın da "taleyi" xalqın taleyi kimi keşməkeşli olub. 1918-ci ildə azadlıq uğrunda mücadilənin son nəticəsi olaraq qaldırılan üçrəngli bayrağımız Azərbaycan Xalq Cümhuriyyətində cəmi 23 ay dalğalandı, Vətənimizin göylərini üç rənglə – göy, qırmızı, yaşılla cəmi 23 ay bəzədi.

Gözü torpaqlarımızda, iştahası sərvətlərimizdə olanlar bu müstəqil respublikanın tərəqqisinə imkan vermədilər. Əsrlərlə həyata keçirilmiş planlar yenidən təkrarlandı. Çoxəsrlik tarixi, ənənələri olan Azərbaycan yenidən bu planların qurbanı oldu. Həmin planların müəllifləri 14 müttəfiqdən biri kimi Azərbaycanı da öz müstəmləkəsinə çevirməklə, 70 illik əsarətə məhkum etdilər. Müstəqilliyimizi əlimizdən aldılar, üçrəngli bayrağımızı da dalğalanmağa qoymadılar. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Sovet Sosialist Respublikası adlandırıldı, bayrağımız isə üçrəngli deyil, imperiyanın müəyyənləşdirdiyi bayraq oldu. Nə az, nə çox, düz 70 il dalğalandı başımız üzərində. Lakin ürəyimizdə yüksəklərə qalxa bilmədi.

Çünki istəmədiyimiz, özümüzünkü olmayan bir bayraq idi. Qanlar bahasına ucaldılmış bayrağın yerinə sancılmış bayraq idi. Sərvətləri talanan, hüquqları tapdalanan, tarixi mənimsənilən bir məmləkətin ələm bayrağı idi.

İllər illərə calandıqca, onilliklər bir-birini əvəz etdikcə zamanı 70 ilə yaxınlaşdırırdı, bununla da əsarətin sonu çatırdı. "Bayraqları bayraq edən üstündəki qandır" kəlamı bu illər uzunu ürəyimizdəki yaranı sızladırdı. Bu sızıltılar isə millətin yuxusunu ərşə çəkir, onu yeni mübarizələrə səsləyirdi. Bu səs Azərbaycana Naxçıvandan yayılırdı. 1990-cı ildə Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan Vətən oğlunun – Ulu Öndər Heydər Əliyevin azadlıq mübarizəsinə çağırışı ilə bütün Azərbaycana yayılırdı. Müstəqillik uğrunda 1918-ci ilin davamı olan mücadilə elə üçrəngli bayrağın yenidən qaldırılması, dalğalanması və bütün azərbaycanlıların bir bayraq altında cəm olması ilə başlandı. Bu təşəbbüs 1990-cı ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi birinci sessiyasında qatı totalitar sovet rejimi dövründə belə, Azərbaycanı gələcək müstəqilliyə hazır¬layan bu görkəmli siyasi xadim tərəfindən irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi və ölkənin ali hakimiyyət orqanı qarşısında Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul edilməsi ilə bağlı vəsatət qaldırıldı.

Bəli, bu, o zaman idi ki, hələ ölkə sovet imperiyasının əsarət zəncirində inləyirdi. Naxçıvandan Azərbaycana yönələn bu müqəddəs çağırışa imperiya başçıları tab gətirə bilmirdilər. Azərbaycanın əldən çıxması, onun ardınca digər müttəfiqlərin də getməsi... Bu yanğı ilə yenidən qanlar axıdıldı. Ölkəmizə xüsusi qoşun göndərildi xalqı susdurmaq üçün. Lakin bu dəfə azərbaycanlılar "öldü var, döndü yox", – dedilər.

Elə buna görə də müstəqillik qazana bildik. Qanlar axıdılsa da, yenə də saysız-hesabsız şəhidlər versək də, sonda azad olduq. 1991-ci ilin 18 oktyabrınadək, yəni 1990-cı ilin 17 noyabrında Naxçıvanda Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılması təklif olunan və azadlıq mücadiləsinə aparan yolun rəmzi olan bayrağımız axıdılan qanla yenidən boyandı və əbədiyyən yüksəldi, dalğalanmağa başladı.

Sevindirici, həm də qürurverici haldır ki, müstəqil dövlətimizin üçrəngli bayrağı əbədiyyən Naxçıvanda Ulu Öndərimizin təşəbbüsü, qayğısı ilə qaldırıldı. Ümummilli Lider deyirdi: "Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik. Və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm. Və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm".

Ulu Öndərin layiqli davamçısı – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır. 2009-cu il noyabr ayının 17-də isə Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi barədə imzaladığı sərəncama əsasən hər il noyabrın 9-nu respublikamızda Dövlət Bayrağı Günü kimi təntənəli şəkildə qeyd edirik.

İndi doğma Azərbaycanımızın hər bir bölgəsində yaradılan Bayraq meydanlarında, Vətənində və Vətənindən kənarda yaşayan bütün azərbaycanlıların qəlbində üçrəngli bir bayraq dalğalanır.

Dalğalan, dalğalan, yüksəklərə, zirvələrə ucal, milli bayrağımız! Müstəqil Azərbaycanın dövlət rəmzi olaraq bu Vətənin azad səsini elə bu Vətənin küləkləri ilə dünyaya yay!

**Mətanət Məmmədova**

# Qarabağdakı ermənilər acdırsa, humanitar yükləri niyə qəbul etmirlər?

***Ermənistanın Baş naziri Nikol Paşinyan ənənəsinə sadiq qalaraq bu dəfə də hökumət iclasında Azərbaycan əleyhinə fikirlər səsləndirib. O bildirib ki, Bakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindəki erməniləri ac saxlayır." Bunu açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.***

O vurğulayıb ki, Paşinyanın son açıqlaması da İrəvan hökumətinin növbəti dəfə regionda yaradılmağa çalışılan sabitliyə qarşı atılmış mövqedir. "Azərbaycan həm Ermənistana, həm də Qarabağdakı ermənilərə humanist yanaşma sərgiləyir. Amma ermənilər acdır. Xatırladım ki, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev müsahibəsində "Ağdam-Xankəndi yolu açılandan sonra Laçın yolu da 24 saat ərzində açılacaq" deyə, fikir bildirmişdi. Onlar buna da razı deyirlər. Blokada məsələsinə gəldikdə belə başa düşmək olar ki, ermənilər elə özlərini blokadaya salıblar. Xankəndiyə yükün göndərilməsi həm də bölgədə "humanitar böhran" iddia edən erməni havadarlarına da sillə kimi cavab oldu. Digər tərəfdən Paşinyan deyib ki, "Qarabağdan ermənilər qovulur". İrəvan hökuməti bu dəfə də yalan danışır, böhtan atır. Artıq nəinki biz hətta Laçın keçidindən istifadə edən ermənilər də Paşinyanın yalan danışdığını başa düşüblər."

Deputat Aydın Hüseynov əlavə edib ki,



bunların qarşılığına İrəvandan böhtan və şər niyyətli mövqelər bəyan edilir. Avqustun 29-da Bakıdan Qızıl Aypara Cəmiyyəti 40 ton un göndərdi. Hələ də həmin yüklər Ağdam Xankəndi yolunda qalıb. Bildiyim qədərilə əlavə humanitar yüklər də göndərilə bilər. Sual yaranır, əgər iddia olunduğu kimi aclıq varsa, niyə 40 ton un hələ də yoldadır? Niyə qəbul etməyirlər? Üstəlik, Xankəndidəki humanitar vəziyyətin qiymətləndirilməsi üçün müraciət də edildi. Bu barədə də cavab verilməyib. Yaranmış vəziyyət yeni ki, iddia olunduğu kimi, ermənilərin ac qalması barədə iddialara şübhələr artır. Təbii ki, mən də inanmıram ki, Qarabağdakı Laçın Buraxılış Məntəqəsi həm Ermənistana, həm də Xankəndi istiqamətinə, ikitərəfli olaraq açıqdır.

"Azərbaycan rəsmi olaraq dəfələrlə Ermənistana Azərbaycanın beynəxlalq səviyyədə qəbul edilmiş ərazi bütövlüyünə müdaxilə etməməyi barədə xəbərdarlıq edib. Paşinyan beynəlxalq çıxışlarında ölkəmizin ərazi bütövlüyünü qəbul etdiyi desə də, son çıxışında da onun adekvat biri olmadığı bird aha məlum oldu. Görünür ki, İrəvan hökuməti post-münaqişə dönəmində bölgədə formalaşan reallıqları düzgün qiymətləndirə bilmir" – deyə deputat açıqlamasında bildirib.

**SƏBİNƏ**

# “Xankəndidə aclıq baş versə, ermənilər Bakıya yalvaracaqlar”



**Millət vəkili Azər Badamovun ”Səs” qəzetinə müsahibəsi**

*- Azər müəllim, Qızıl Aypara Cəmiyyətinin xətti ilə Xankəndinə humanitar yardım göndərilib. Separatçılar humanitar yardımı qəbul etmək istəmirlər. Bunu bilərəkdən vəziyyəti gərginləşdirməyə hesablanan təxribat hesab etmək olar?*

- Azərbaycan özünün xoş məramını nümayiş etdirərək Xankəndidə yaşayan ermənilərə humanitar yardım göndərib. Bu yardımı ermənilərin qəbul edib-etməməsi onların yardıma ehtiyacı olub-olmamasından asılıdır. Bu gün separatçılar Azərbaycandan humanitar yardımı qəbul etməyəcəklərini və yardımları ancaq Laçın yolu vasitəsilə Ermənistandan qəbul etmək istədiklərini bildirirlərsə, bu, Xankəndidə humanitar yardıma ehtiyac olmamasından irəli gəldiyini göstərir. Əgər Xankəndidə aclıq baş versə, ermənilər Bakıya yalvaracaqlar. Yox, Ermənistan və separatçılar humanitar yardım adı altında öz çirkin niyyətlərinə davam etdirmək istəyirlərsə, bu, baş tutmayacaq.

*- Erməni separatçıları və onlara himayədarlıq edənlər hələ yüklərin Laçın sərhəd keçid məntəqəsi vasitəsilə daşınmasını istəyirlər. Rəsmi Bakının ermənilərin bu istəyinə qarşı tədbirləri hansı formada ola bilər?*

- Laçın yolu vasitəsilə Ermənistandan daşımalar, ancaq Azərbaycan dövlətinin icazəsi ilə və sərhəd -gömrük qaydalarına riayət olunmaq şərtilə həyata keçirilə bilər. Amma Fransa və ermənilərə dayaq dayanan digər dairələr Xankəndinə humanitar yardım göndərmək istəyirlərsə, bu, ilk növbədə, Azərbaycana gəlməli və Ağdam-Xankəndi yolu vasitəsilə daşınmalıdır. Əks halda, Ermənistanın və onun havadarlarının Laçın sərhədində humanitar şounu nümayiş etdirməsi suverən hüquqlarımıza müdaxilə cəhdi hesab edirəm və belə hərəkətlərə Azərbaycan heç vaxt imkan verməyəcəkdir.

*- Laçın sərhəd keçid məntəqəsi yaxınlığında ermənilərin və onların himayədarı olan Fransanın yaratdığı humanitar şounun aqibəti necə olacaq?*

- Təəssüf ki, bu gün Fransa da Ermənistanın Laçın sərhəd məntəqəsi yaxınlığındakı humanitar yardım adı altında nümayiş etdirdiyi erməni şousuna qoşularaq dəstək verməyə başlamışdır. Fransadan gələn humanitar yük adı altnda dayanan avtomobillər, ancaq yolda tıxac yaratmaqla ermənilərin özlərinin hərəkətinə mane törədir. Parisin meri də sərhədimizə qədər gələrək ondan əvvəl gələnlər kimi binokldan Azərbaycana baxıb şəkil çəkdirərək şou nümayiş etdirdi. Onlar heç də düşünməsinlər ki, belə şoular yaratmaqla Azərbaycanı öz yolundan çəkindirə biləcəklər. Azərbaycan 44 günlük Vətən müharibəsində döyüş meydanında ərazilərini erməni işğalından azad etmişdir. Bundan sonra da lazım gələrsə hər bir yolla öz suverən ərazilərini düşmənlərdən müdafiə etməyə qadirdir. Ermənilərin və onlara dayaq dayananların buna şübhəsi olmasın.

*- Xankəndidə separatçılar arasında gərginləşən münasibətlərdə rus sülhməramlı da zərər çəkməkdədir. Bu, nəticə etibarilə rus sülhməramlıları ilə separatçılar arasında dərin qarşıdurmanın genişlənməsinə gətirib çıxara bilər?*

- Ermənilər hesab edirlər ki, ruslar onlara həmişə borcludurlar. Çünki tarix boyu ruslar ermənilərə dəstək göstərərək Azərbaycanın ərazilərini Ermənistana vermiş və onlara dövlət yaratmasına kömək etmişdir. Hətta 90-cı illərdə ərazilərimizi işğal edəndə də ruslar açıq şəkildə Ermənistana dəstək vermişdilər. Ona görə də, ermənilər bu gün də açıq şəkildə rusların onlara dəstək göstərməsini və Azərbaycanla güc dilində danışmağını istəyirlər. Amma bu gün reallıqlar dəyişilmişdir. Bu gün rusun özünün dəstəyə ehtiyacı var. Ermənilər xain millət olduğundan, rusun zəifləməsindən istifadə edərək onlara təzyiq göstərməyə çalışır. Xankəndidə belə qarşıdurmalar çoxalacaqdır. Hətta onların özləri arasında da qarşıdurmalar baş verəcəkdir. Nəticədə, separatçılar ərazilərimizi tərk edəcək və azərbaycanlılarla birgə yaşamaq istəyən ermənilər Xankəndidə qalacaqlar. Bu gün sülhməramlıların müvəqqəti nəzarət etdiyi ərazilərdə Azərbaycanın konstitusiyon dövlət quruluşunun bərpası labüddür və bunun alternativi yoxdur. Ermənilər bu reallığı nə qədər tez qəbul etsələr, onların təhlükəsizlikləri və təminatları da bir o qədər tez təmin olunacaqdır.

***GÜLYANƏ***

## Ödənişli olması polietilen torbaların istifadəsinə necə təsir edib?



**İQTİSADÇI AÇIQLADI**

“Polietilen torbaların ödənişli olması bu torbalardan istifadəyə çox ciddi təsir etməyib. Bu layihə bir müddət pilot olaraq tətbiq edilməli idi. Pilot layihə kimi yoxlanılmadan tətbiq edildi. Nəticədə isə bu qanun yetərincə effekt vermədi”. SİA xəbər verir ki, bu sözləri açıqlamasında iqtisadçı ekspert Rauf Qarayev deyib.

Onun sözlərinə görə, polietilen torbalardan hazırda da geniş istifadə olunur və ekologiyanı çirkləndirməyə əvvəlki kimi davam edirlər: ”Qanun qəbul olunmamışdan əvvəl bir sıra sınaqlardan keçməli idi. Sınaq uğurlu olardısa, effektvermə əmsalı yüksək olardı”.

İqtisadçı bildirdi ki, polietilen torbaların keyfiyyətində də problemlər var: “Polietilen torbaların keyfiyyətinə nəzarət də düzgün aparılmır və istehsalçı burada polietilen torbaları incəldərək, keyfiyyətini azaldaraq əlavə qazanc əldə edir. Nəticədə, bu da insanları əlavə polietilen torba almağa sövq edir. Polietilen torbalar yırtıldığı zaman onu yenisi ilə əvəz etsinlər. İri marketlərdən kənar satılan polietilen torbalar da əvvəlki kimi keyfiyyətli deyil”.

Ekspert həmçinin polietilen torbaların reklam vasitəsi olduğunu nəzərə çatdırdı: “Polietilen torbaların üzərində marketlərin loqoları yerləşdirilib. Yəni polietilen torbalardan istifadə edən hər bir alıcı marketi reklam edir. Şirkətlər gəlirinin 40 faizinə yaxını marketinq siyasətinə xərclədiyini nəzərə alsaq, burada demək olar ki, heç bir xərc çəkmədən özünü reklam edir”.

***Ləman Sərraf***

## Nikol Paşinyan Azərbaycana hansı təklifi edib?

*“Ola bilsin ki, Paşinyan sülh gündəminin qələbəsi naminə Sünikin (Zəngəzur) sülh yolu ilə qaytarılmasını Azərbaycana təklif edib", - deyə erməni politoloqu iddia edib"*

Erməni politoloqu Avetis Babacanyan ölkəsinin KİV-lərinə açıqlamasında deyib ki, baş nazir Nikol Paşinyan Azərbaycana gizli təklif edib və bu təklif Zəngəzurla bağlıdır. Daha dəqiq desək, söhbət Qərbi Zəngəzurun Azərbaycana qaytarılmasından gedir.

“Nikol Paşinyan sülh müqaviləsi ilə bağlı Ermənistanın yeni təkliflərini Azərbaycana təqdim etdiyini açıqladı. Bunun nədən ibarət olduğunu və yeni təkliflərin əvvəlkindən nə ilə fərqləndiyini, Ermənistanın niyə Azərbaycan üçün daha məqbul ola biləcək yeni təkliflərlə çıxış etməyə məcbur olduğunu açıqlamayıb. Ola bilsin ki, Paşinyan sülh gündəminin qələbəsi naminə Sünikin (Zəngəzur) sülh yolu ilə qaytarılmasını Azərbaycana təklif edib”, - deyə erməni politoloqu iddia edib.

Onun sözlərinə görə, təsadüfi olmaya bilər ki, o, Sünikə (Zəngəzur) səfərindən dərhal sonra bu təkliflərdən danışır, yerindəcə yoxlayır və təhvil-təslim prosesinin böyük müqavimətlə üzləşməyəcəyinə əmin olur, xüsusən də bu, sülhün yekun qələbəsi naminə edilir.

”O, gözümüzün önündə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdı”

Babacanyana görə, onda Paşinyan Zəngəzurun sülh yolu ilə təhvil verilməsini Azərbaycana təklif edə biləcəyinə əsaslı şübhələr var: ”O, gözümüzün önündə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdı, yeni bu, o qədər də inanılmaz görünmür. Paşinyanın gələcək planları, sülh gündəmi ilə bağlı daha bir mühüm göstərici var. Söhbət Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesindən gedir. Türkiyə sərhədindən Eçmiədzinə (Üçkilsə və ya Üçmüəzzin) gedən yol, artıq bir ildən çoxdur ki, tikilir. Ermənistan hökuməti Türkiyə sərhədində gömrük idarəsi və gömrük nəzarəti infrastrukturunun yaradılmasına yüz milyonlarla vəsait xərcləyir. Ermənistan-Türkiyə sərhədinin açılacağı, gömrük məntəqəsinin işləyəcəyi, yolun istismarı ilə bağlı dəqiq razılaşma olmasaydı, belə xərclər edərdimi?”

**”Türkiyə hakimiyyəti artıq bir neçə dəfə bəyan edib ki”**

Politoloq həmçinin qeyd edib ki, söhbət sərhədin nə vaxt açılacağı və ya Ermənistandan hansı güzəştlər olacağı təqdirdə Türkiyə hakimiyyətinin sərhədin açılmasına icazə verməsidir: ”Türkiyə hakimiyyəti artıq bir neçə dəfə bəyan edib ki, Ermənistanla münasibətlərinin tənzimlənməsi Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi ilə paraleldir, Ermənistan-Azərbaycan münasibətləri tənzimlənmədən Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsi mümkün deyil”.

**”Qapalı görüşlərdə Paşinyan hakimiyyətinin nümayəndələri deyirlər ki, ruslar gedəndən sonra Ermənistan ya fars, ya da türk nəzarət zonasına çevrilməlidir”**

Beləliklə, erməni politoloquna görə, Paşinyan Zəngəzurun verilməsini çox asanlıqla əsaslandıra bilər ki, bununla da Ermənistanın təhlükəsizliyi möhkəmlənir: ”Qapalı görüşlərdə Paşinyan hakimiyyətinin nümayəndələri deyirlər ki, ruslar gedəndən sonra Ermənistan ya fars, ya da türk nəzarət zonasına çevrilməlidir və onlar daha mütərəqqi, daha qərb, türk təsir zonasında yer almağa üstünlük veriblər. Paşinyan deyə bilər ki, Zəngəzuru Azərbaycanın nəzarətinə verməklə Ermənistan özünü mümkün İran təhlükəsindən sığortalayır”, Avetis Babacanyan iddia edib.

***Afət Tahirqızı***



# “Bu il ali təhsil müəssisələrinə qəbul nəticəsi fantastikdir“



EKSPERT DANIŞDI

*“Bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanları kifayət qədər əvvəlki illərdən fərqlənirdi. Birinci ixtisas qrupunda alt qrupların yaradılması, həmçinin İnformatika fənninin daxil edilməsi 1-ci ixtisas qrupuna öz təsirini birmənalı şəkildə göstərdi.*



Eyni zamanda bu il birinci ixtisas qrupu üzrə plan yerləri də artmışdı. Bütün bunların nəticəsində bu il birinci ixtisas qrupu üzrə 200 bal ilə dövlət sifarişiylə dövlət ali təhsil müəssisələrinə qəbulun şahidi olduq. Hətta bu il birinci ixtisas qrupu üzrə Gəncə və Lənkəranda 175 bal ilə ali məktəblərə qəbul olmaq mümkün oldu”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

Onun sözlərinə görə, təbii ki, bu aşağı göstəricidir: “Amma istənilən halda təhsilin əlçatanlığına xidmət edir. Ali təhsil müəssisələrinə plan yerlər tam şəkildə dolmayıb. Yaxın günlərdə ikinci mərhələ baş tutacaq. Müsabiqə şərtini ödəyənlər sentyabrın 4-dən 9-a qədər seçim edəcəklər.

Ayrı-ayrı qruplar üzrə müqayisə etdikdə gördük ki, ən aşağı ballarla, hətta 4-cü ixtisas qrupu üzrə belə dövlət ali təhsil müəssisələrinə qəbul olmaq mümkün oldu. Bunlar təhsilin əlçatanlığını təmin etsə belə biz ən aşağı ballar ilə ali təhsil müəssisəsinə qəbulun şahidi olduq.

Yüksək ballarla 3-cü qrup ixtisas qrupu üzrə daha çox Bakı Dövlət Universitetinə qəbulun şahidi olduq. Ümumilikdə isə bu il ali təhsil müəssisələrinə qəbul nəticəsi fantastikdir, 50 min abitruyent tələbə adını qazandı. Bu yaxşı hal olsa belə, sonrakı mərhələdə ali təhsil müəssisələrinin üzərinə böyük yük düşür”.

***S. Hüseynli***

# “Dünyada həllini tapa bilməyən taxıl böhranı hökm sürür”



*“Rusiya-Ukrayna müharibəsinin davam etməsi bütün dünya iqtisadiyyatına çox ciddi təsir göstərir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, təbii ki, bu təsir Azərbaycandan da yan keçməyəcək:*

“Azərbaycan vəziyyətdən ən az zərərlə çıxmaq üçün lazımi addımları atır. Lakin hazırda dünyada həllini tapa bilməyən taxıl böhranı hökm sürür. Hətta bu müəyyən ölkələrdə ərzaq qıtlığına qədər gətirib, çıxarır. Buna görə də bu istiqamətdə problemlər daha da qəlizləşməmiş müvafiq beynəlxalq təşkilatlar hərəkətə keçməlidir”.

***Səbinə***

# Fransanın simasızlığı



Azərbaycan tarixi Zəfərindən sonra bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərində yeni səhifənin açılması üçün qarşı tərəfə sülh müqaviləsinin imzalanmasını təklif edib. Dövlətimiz bu istiqamətdə səylərini günbəgün artırsa da işğalçı Ermənistan havadarlarının maraqlarının ifadəçisi kimi yenə də müxtəlif vasitələrlə, əsassız təbliğatı ilə prosesin uzanmasında maraqlı olduğunu nümayiş etdirir. İstər işğal, istər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmünaqişə dövründə Fransanın Azərbaycana qarşı qərəzli mövqeyi daim diqqətdə olmaqla yanaşı, onun bu davranışları müxtəlif fikirlərin yaranmasına səbəb olub. Hələ də anlamaq olmur ki, Fransa nə üçün vəziyyətin gərginləşməsində maraqlıdır? Fransa atdığı addımların ona qarşı bir inamsızlıq mühitinin yaranmasında nə kimi rol oynadığını düşünürmü? Hər zaman qeyd edildiyi kimi, Fransa ilə Ermənistanı eyni dəyərlər birləşdirsə də bu, hansısa bir məsələyə yanaşmada qərəz, ədalətsiz mövqe nümayiş etdirməyə əsas vermir.

Dövlət başçısı İlham Əliyevin Şuşa Qlobal Media Forumunda İkinci Qarabağ savaşı dönəmində ölkələrin mövqeyi ilə bağlı ünvanlanan suala cavabında səsləndirdiyi “Artıq bu, tarixdə qalıb. Biz bilirik bizim yanımızda kim olub, biz bilirik Ermənistanın yanında kim olub, neytral mövqedə kim olub. İndi bu məsələnin yenidən gündəmə gətirilməsi hesab edirəm ki, düzgün olmaz. Bizim əsas vəzifəmiz torpaqlarımızı azad etmək idi, buna da nail olduq. Hər bir ölkənin öz gündəliyi var, öz xarici siyasəti var, necə deyərlər, öz daxili səbəbləri var. Biz bunu da başa düşürük. Bəzi ölkələrdən bəlkə daha çox dəstək gözləyirdik, bəzi ölkələrdən, ümumiyyətlə, heç nə gözləmirdik. Yəni, bu, beynəlxalq münasibətlərin qanunlarıdır” söyləməklə Azərbaycanın xarici siyasətinin əsas prinsipini açıqladı. Bir daha bəyan etdi ki, heç bir dövlətin daxili işinə qarışmırıq və öz daxili işimizə müdaxiləni yolverilməz hesab edirik. Dövlət başçısı bu məqamı da xüsusi vurğuladı ki, İkinci Qarabağ müharibəsi dövründə və müharibədən sonra Ermənistana yaxınlığı ilə seçilən ölkələr artıq öz ermənipərəst mövqelərini gizlədə bilməmişdilər, yaxud da bunu istəməmişdilər. Bu, o ölkələrlə münasibətlərin müəyyən dərəcədə gərginləşməsinə gətirib çıxarmışdır. Ancaq bu, o demək deyil ki, bu, əbədi belə olacaq. Bu mərhələ də başa çatacaq, yeni mərhələ açılacaq və əsas odur ki, sənin gündəliyin olsun. Düşünürük ki, Prezident İlham Əliyevin bu çağırışı kiçik dövlətlərə ədalət və beynəlxalq hüquq dərsi keçməyə çalışan, amma özünə və himayədarlıq etdiyi ölkələrə gəldikdə bu prinsipləri arxa plana keçirməkdən narahatlıq hissi belə keçirməyən Fransa kimi dövlətlərə ciddi mesajdır.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə saxta erməni təbliğatının hədəfindən bəhs edərək bildirib ki, Azərbaycan-Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən işğalçı dövlət və onu himayə edən qüvvələr ölkəmizi guya sərhəddə vəziyyəti gərinləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Rəsmi İrəvan bu cür cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasətinə fərqli don geyindirməyə çalışır. Reallıq budur ki, Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş Ermənistan silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərksilah olunması baxımından böyük önəm daşıyır. Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolu ilə Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu məsələdə Fransanın erməni təbliğatına dəstəyi diqqətdən kənarda qalmır. Görünən budur ki, Fransa Azərbaycanın tarixi Zəfərini, yaratdığı yeni reallıqları həzm edə bilmir. Fransa rəsmilərinin guya Laçın-Xankəndi yolunun bağlanması və oradakı ermənilərin humanitar-iqtisadi blokadaya alınması barədə sərsəm fikirlərinin davamlılığı da bu ölkənin məqsəd və məramına aydınlıq gətirir.

Prezident İlham Əliyev bu günlərdə “Laçın Şəhəri Günü” bayram tədbirindəki çıxışında da bu çağırışı etdi ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu müharibə dövründə göstərmişik. 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərdik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki Azərbaycana qarşı aparılan kampaniya, çirkin təbliğat iradəmizə təsir edə, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Heç kimdən qorxmuruq və bunu həm döyüş meydanında, həm siyasi müstəvidə göstərmişik. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan və bölgə üçün yaxşı olacaq.

YAP Xətai rayon təşkilatının sədri diqqəti avqustun 28-də Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi sərsəm fikirlərə və Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatına yönəldib. Qeyd edib ki, Xarici İşlər Nazirliyi mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl kimi dəyərləndirir. Fransa Prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək sərsəm fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir. Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa Prezidentinin indi Azərbaycanın BMT Nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyətlə bağlı iddiaları çıxışında xüsusi vurğulaması anlaşılan deyil. Makronun leksikonunda “Laçın humanitar dəhlizi” kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir. Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq.

***Müasir müstəqil Azərbaycanda uğurlu gənclər siyasətinin əsası 1994-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Ulu Öndər sağlam düşüncəli yeni nəslin yetişdirilməsinin dövlətin və cəmiyyətin mühüm vəzifəsi olduğunu bəyan etdi. Məlumdur ki, həmin dövrdə respublikamızda vəziyyət heç də ürəkaçan deyildi. Ölkə iqtisadi tənəzzül yaşayırdı, müstəqilliyimizə daxildən və xaricdən böyük təhdidlər var idi. Bütün bu çətinliklərə baxmayaraq Ulu Öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Heydər Əliyev gənclərə böyük rəğbətinin və inamının ifadəsi olaraq ilk görüşlərindən birini məhz onlarla keçirdi. Ümummilli Lider ümidlə vurğulayırdı ki, Azərbaycanın genofondu gənclərdir.***



# Gənclər siyasəti: Sabaha böyük inamla...



Biz onları hərtərəfli qorumalıyıq: “Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır”.

Ümummilli Lider Heydər Əliyevin 1994-cü il iyulun 26-da imzaladığı müvafiq Fərmana əsasən, ölkəmizdə gənclər siyasətini həyata keçirən mərkəzi icra orqanı - Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndər 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bundan bir il sonra isə Ümummilli Lider gənclərə böyük qayğısının daha bir təzahürü kimi, 2 fevralın Azərbaycanda Gənclər Günü elan edilməsi haqqında müvafiq Sərəncam imzaladı. Həmin vaxtdan etibarən hər il 2 fevral ölkəmizdə Azərbaycan gənclərinin bayramı kimi qeyd olunur.

Hazırda respublikamızda Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu məqsədyönlü gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin gənclər siyasəti ilə bağlı müxtəlif illərdə imzaladığı Fərman və sərəncamlar ölkəmizdə aparılan gənclər siyasətinə yeni impuls verib. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiqlənən və 2005-2009-cu, eləcə də 2011-2015-ci illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Hazırda Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrası da yüksək səviyyədə təmin edilir.

Ölkəmizdə gənclər siyasətinin mühüm tərkib hissəsi kimi gənclərin yüksək səviyyəli təhsil almalarına, onların öz intellektual bacarıqlarını daha da artırmalarına dövlət səviyyəsində böyük qayğı göstərilməsi diqqətəlayiq haldır. Dövlət başçısı “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında” müvafiq Fərman və sərəncamlar imzalayıb. Ölkəmizdə “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı” (2006-2010-cu illər) böyük müvəffəqiyyətlə reallaşdırılıb. Dövlət başçısının 2 iyul 2013-cü il tarixli Fərmanı ilə Gənclər üçün Prezident mükafatı təsis edilib. Mükafat elm, mədəniyyət, ədəbiyyat, təhsil və ictimai fəaliyyət sahələrində fərqlənən gənclərə ildə bir dəfə təqdim edilir. Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiqlənən “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi təmin edilib.

Dövlət başçısının müvafiq Fərmanı əsasında Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən qurulub. Ölkəmizdə gənclər siyasətinin inkişafına Prezident İlham Əliyevin müvafiq Fərmanı əsasında 2011-ci ildə yaradılan Gənclər Fondu yeni təkan verib. 2018-ci il 7 mart tarixində Prezident İlham Əliyev “Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun əsasında “Azərbaycan Respublikasının Gənclər Fondu” publik hüquqi şəxs yaradılıb və bu qurumun Nizamnaməsi təsdiq edilib. Gənclər Fondu tərəfindən gənclərin ictimai təşəbbüslərinə, yerli və beynəlxalq miqyaslı layihələrinə dəstək verilir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq gənclərə göstərilən dövlət qayğısının əhatə dairəsi kifayət qədər genişdir. Gənclər isə öz növbələrində genişmiqyaslı dövlət qayğısından, onlar üçün yaradılan əlverişli şəraitdən maksimum dərəcədə bəhrələnərək müstəqil Azərbaycanın inkişafı naminə böyük fəallıq nümayiş etdirirlər.

Ardıcıllıqla həyata keçirilən gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edərkən ölkəmizdə vətənpərvər gənclər nəslinin formalaşmasını məmnunluq hissi ilə qeyd edə bilərik. Belə ki, Vətən müharibəsində Böyük Zəfərin qazanılmasında gənclərimizin həlledici rolu olub. Ərazi bütövlüyümüz naminə, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bununla hər birimiz qürur duyuruq. Uğurlu gənclər siyasəti sayəsində ölkəmizdə elə bir nəsil yetişdi ki, hətta Qarabağı görməyən, oradakı faciələrin canlı şahidi olmayan gənclər Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə getdilər və şəhadətə ucaldılar, qazi oldular və bayrağımızı zirvələrə qaldırdılar.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyev igid gənclərimizin rəşadətini yüksək dəyərləndirib: “Azərbaycan gəncləri Vətən müharibəsində böyük şücaət nümayiş etdirdilər. Vətənpərvərlik, dövlətə sədaqət ruhunda yetişmiş Azərbaycan gəncləri torpaqlarımızı işğalçılardan azad etdi. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bu, tarixi hadisədir”.

Biz İkinci Qarabağ müharibəsində 3 min şəhid verdik, çoxsaylı qazilərimiz oldu, amma ermənilərdən fərqli olaraq, bir nəfər də fərarimiz olmadı. Onlarla gənc Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü, minlərlə Vətən müdafiəçisi orden və medallarla təltif edildi. İnamla demək olar ki, indi biz məhz 44 günlük Zəfər yürüşünün sayəsində bütün dünyada qalib xalq kimi tanınırıq.

Vətənpərvərlik gənclərimizin həyat amalına çevirməli, milli ruhda tərbiyə olunmalıdırlar. Gəlinən nəticə odur ki, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.



**_Nigar Orucova_**

# Teleskopla, yoxsa mikroskopla...



*Həyat gözəldir, bu, bütün zamanlar üçün dəyişməz qalır. Həyat ilin fəsilləri, fəsillərin illərə çevrilməsi, illərin bizə bəxş etdiyi xoş günlərlə gözəldir. Həyat hər günlə, hər anla gözəldir. Bəli, həyat elə eyni həyatdır, dəyişməzdir. Dəyişən bizlərik. Biz dəyişməklə, həyata bir başqa gözlə baxırıq. Baxdıqca da həyatın dəyişməsindən gileylənirik. Lakin dəyişən bizik, həyat deyil...*

Həyat və biz... Bu gün bu iki anlayışın bir-birinə təması fonunda insanlarda yaranan sevgi və qısqanclıq hisslərindən söhbət açmaq istəyirəm. O hisslər ki, həyatı sevgi ilə ona baxdığımızda sanki teleskopla, qısqanclıq və paxıllıqla baxdıqda isə sanki mikroskopla görürmüş kimi hiss edirik. Belə isə necə edək ki, həyata mikroskopla deyil, teleskopla baxaq?

## "Dünyanı sevgi xilas edəcək" deyənlərə...

Bəli, "dünyanı sevgi xilas edəcək" deyənlərə, alqışlar yağdıraq. Bu, həqiqətən də belədir. Məgər həyatımız sevgi üzərində qurulmayıbmı? Sevgi deyəndə bəzi insanlar yalnız kişi-qadın münasibətlərini nəzərdə tutur, lakin sevgi tək bu deyil. Sevgi elə bizim dünyaya gəlişimizdən başlanır. Bizi dünyaya bəxş edənlərin sevgisindən, sonra bizim həyata, doğmalarımıza, bağça, mək-



təb müəllimlərimizə sevgimizdən başlayır. Daha sonra bu sevgi biz hiss etmədən hər günümüzdə doğulur. Bunu hiss edə biliriksə, yaşaya bilirik, hiss edə, görə bilmiriksə, özümüz öz həyatımızı məhv edir, pessimizmə qapılır və həyata yalnızca mikroskopla baxa bilirik. Beləliklə də zaman-zaman içimizdə müxtəlif hisslər yaranmağa başlayır: həsəd, paxıllıq kimi... Bu hisslər isə teleskopik baxışları mikroskopik həddə endirir.

Həyatın gözəlliyini duyduqca, bu gözəlliyə lazımi qiymət verdikcə, insan özü də gözəlləşir, içinə ülvi hisslər dolur. Paxıllıqdan, həsəddən uzaq bir həyat yaşayır. Lakin həyatı görməzdən gəldikcə, həyatın gözəlliyini yalnız sosial şəbəkələrdəkimlərinsə videolarında, şəkillərində axtardıqca, artıq içində sevgidən əsər-əlamət qalmır. O, yavaş-yavaş sosial şəbəkələrdə bu gün olub, sabah yoxa çıxan şəkillər, videolar kimi səni tərk edir.

Belə olanda isə başqa bir düşüncəyə qapılırsan və belə bir sual çıxır meydana: dünyanı sevgi xilas edə biləcəkmi? Axı müasir dövrümüzdə insanların içindəki həyat sevgisi öz yerini həsəd, paxıllıq kimi hisslərə verib, sevgini qovub çıxarır. Bu təqdirdə dünyanı kimlərin sevgisi xilas edə bilər?..

## Həsəd, paxıllıq və qısqanclıq...

Dünya binə olandan bu üç hiss insan övladı ilə birgə addımlamaqdadır. Əvvəl sinif, tələbə yoldaşımıza həsəd aparırıq. Onun kimi niyə təriflənmirik, onun kimi niyə geyinmirik? Bu həsəd istər-istəməz qarşıda paxıllıqla nəticələnir. Paxıllıq isə zamanla içimizə qısqanclıq lövbərini salır. Bu üçmərhələli hisslərin nəticəsi isə ağır olur. Sanki həyatdan əlimizi üzürük. əlimizdə olanları itirmək hissi ilə yaşayırıq. Bunu sabah quracağımız ailəyə də daşıyırıq. Həyat yoldaşımızı qarabaqara izləyirik, onu kiminsə əlimizdən almasından qorxuruq. Ən yaxın



qohumlarımıza, iş yoldaşlarına qısqanırıq. Bu isə ailədə anormal bir vəziyyətə səbəb olur və bununla həyatımız qaranlıqlaşmağa başlayır.

Bütün bu hisslərin müasir dövrümüzdə formalaşmasına isə o qədər optimal şərait var ki... Sosial şəbəkələr bu hisslərin formalaşması üçün, sözün həqiqi mənasında, yelkən açıb. Paylaşılan şəkillər və videolar həyatın gözəlliyi üzərinə pərdə çəkərək ön plana keçib. Müxtəlif səyahətlər, gəzintilər, ad günləri, toy, nişan, xınayaxdı videoları, sevgililərin bir-birilərinə aldıqları hədiyyələrin reklamı bu gün bizi bədbəxtliyə sürükləyən amillərdir. Cəmiyyətimizin yox olmasına hesablanan məqamlardır. Elə bu səbəbdən də sosial şəbəkələrin bəzi halda çox faydalı olduğunu bilsək də, bu cür halları ilə barışa bilmirik. Çünki xüsusilə gənclərimiz sosial şəbəkələrdən düzgün şəkildə faydalana bilmir. Onlar burada inkişaflarına şərait yaradacaq videolar əvəzinə, dəbli paltarların, fərqli həyatların, toyların, ad günlərinin, maşınların videolarını daha çox izləyir ki, bunun da nəticəsi həsəd, paxıllıq və qısqanclıq hissinin son həddə çatmasına səbəb olur.

## Virtualdan çox vizual

Qeyd etdiyimiz kimi, həsəd, paxıllıq, qısqanclıq hissləri dünya binə olandan insan övladına xas olub. Lakin bu hisslər heç vaxt bugünkü qədər qabarıq şəkildə olmayıb. Bunun da səbəbi indi insanlarda bu hissələri alışdıran vizual aləmin olmasıdır.

Uzaq keçmişə deyil, 30-40 il öncəyə nəzər salaq. İnternetsiz bir aləmdə yaşayırdı insanlar. Sadaladığımız bu hisslərin hər biri ilə oxuduqları kitablarda qarşılaşırdılar. Bu, virtual hiss idi. Kitablardakı həsəd hissli, paxıl, qısqanc obrazları təxəyyülümüzdə canlandırırdıq. Bu obrazları mənfi obrazlar kimi dəyərləndirirdik. Heç vaxt onlara haqq vermirdik ki, düzgün edirlər. Əksinə, onları məzəmmət edirdik. Onlara oxşamamağa çalışırdıq.

Ətrafımızda da bu cür xüsusiyyətlərə malik insanlar vardı. Lakin bu gün cəmiyyətimizdə gördüyümüz insanlardan çox fərqli idilər. Bunun səbəbi sosial şəbəkələrsiz həyat idi. Ozamanki insanların həyatına bu hisslər vizual olaraq yansımırdı. Hər gün, hər gün beyinlərinə hopdurulmurdu. Buna görə də o dövrlə bu dövr arasında böyük fərq var.

İndi bütün yaş qruplarından olan insanlar sosial şəbəkələrdə başqalarının videoları, şəkilləri ilə vizual bir həsəd, paxıllıq, qısqanclıq hissi yaşayır. Bu hisslər hər gün saatlarla sosial şəbəkələrdə gəzişən insanların həyatını alt-üst etməkdədir. Eyni zamanda, onlarla serialların hər biri də bu hisslərin yaranmasına təkan verir. Sanki elə bil bütün sosial şəbəkələr də, serial və filmlər də insanların həyatını, onların bu gözəl həyata baxışlarını dəyişdirməyə xidmət edir.

## Kimə deyəsən ki...

Bəli, kimə deyəsən ki, belə film, seriallara baxmayın. Bu sosial şəbəkələri az izləyin. Məgər eşidən varmı? Baxmayaraq ki, mətbuat bundan hər gün yazır. Oxuyanlar da var, lakin əməl edənlər necə, varmı? Əlbəttə ki, yoxdur. Çünki oxunanlar hələ dərk edilməmiş yeni videolar, şəkillər gözləri qamaşdırır, oxunanlar da yaddan çıxır.

Sözün açığı, biz sosial şəbəkələrin əsiri-



nə çevrilmişik. Onlar bizi necə istəyirlərsə, o cür də istismar edir. Sanki bir əsir düşərgəsindəyik. Düşərgə rəhbəri biz necə istəyirsə, o cür də idarə edir. Səhərdən axşamadək əməyimizi istismar edir, bax, sosial şəbəkələr də belədir.

Sosial şəbəkələr bir maqnit gücü ilə bizi özünə bağlayıb. Nə qədər ayrılmaq istəsək də, ayrıla bilmirik. Nə etsək də, ondan qopa bilmirik. Qopa bilmədikcə də biz bizlikdən çıxıb başqalarına oxşayırıq. Həsəd, paxıllıq hissi "nə edim ki, mənim də olsun" düşüncəsi bizi didib-parçalayır. Qısqanclıqdan od tutub yanırıq.

Kimə deyəsən ki, ay qız, ay oğlan, ay gəlin, ay qadın, ay kişi, bu sosial şəbəkələr sizin axırınıza çıxacaq. Kimə deyəsən? Artıq biz öz həyatımızı demək olar ki, Tiktoka, İntagrama, Fecebooka, Teleqrama, Twitterə qurban vermişik. Bunlar olub həyatımızın ayrılmaz hissəsi. Çörək, su kimi təlabatımıza çevrilib. Telefon əlimizdə harada gəldi, dəqiqədə bir bu şəbəkələrə baş vurmasaq, rahatlıq tapa bilmirik.

Bu günlərdə türk mediasında Tülin Berovanın bu hisslərlə bağlı maraqlı bir yazısını oxudum. Yazıdan bəzi məqamlar: Qısqanclıq xəstəlik kimidir... Əvvəla, qısqanclığın əlamətləri sevdiyiniz insanı itirmək və ya sahib olmaq istədiyiniz şeylərə sahib olmaq istəyi ilə başlayır... Qısqanclıq paxıllıq vəziyyətinə bənzəyir... Bu, insanları müxtəlif şübhələrə salan həsəddir... Sosial şəbəkələrdə paylaşılan paylaşımlar və bu şəbəkələrdən intensiv istifadə qısqanclığın getdikcə daha da sürətlə yayılmasına səbəb olur... Ən çox da qısqanclıq sevgi işlərində pis nəticələrlə əlaqələndirilir, kişilər cinayəti törədənləri, qadınlar qurbanı təmsil edir və xəbərlərin çoxu bu yöndə faktlara söykənir.

...Televiziya seriallarının əksəriyyətində qısqanclıq mövzusu incə şəkildə tamaşaçının ruhuna hopdurulur, paxıllıq isə inanmağa hazır olanların beyninə işlənir...

Araşdırmalar deyir ki, qısqanclıq insanları qətllərə sürükləyir. Qısqanclıq fiziki zorakılıq, aqressiv davranışlar, yüksək səslə danışmaq, həmçinin psixoloji təzyiq altında olan insanlarda davranış pozğunluqlarına səbəb olur. Özünüzü baxmaqdan saxlaya bilmirsiniz və bir müddət sonra " niyə onun xoşbəxtliyi var, məndə yoxdur" deyərək iqtisadi, sosial və mənəvi baxımdan qısqanclığınızın səsini eşidə bilirsiniz.

... İnstagram hesabları insanların rəqəm-



sal albomları kimi olub. Köhnə zamanların fotoşəkilləri artıq yayılmır. Yalnız toy mərasimlərində fotoqraflar foto çəkir, sərgiləyir və satmaqla məşğul olurlar.

İzlədiyiniz adamın hesabına daxil olun, bütün paylaşılan şəkillər, əyləncə məkanından tutmuş restorana getmək, bağçada gəzmək, evin balkonunda manqal etmək, şəkillərdə bütün uşaqlar və qonaqlar əlinizin altındadır, böyüdüb-kiçildərək hər şeyi ən xırda detalına qədər görə bilərsiniz... Facebook və Twitter də eyni xidməti təqdim edir... Ən son dəbli paltarlara baxırsınız. Bunlara önəm verənlər var, paxıllıq edənlər var, "yaxşı gündə istifadə edin" deyənlər var, deməyənlər də var ... Xəstəxanaya düşənlər tez sağalsın və mərhumların ailələrinə başsağlığı mesajları, hər gün qeyd etdiyiniz ad günləri, yeni doğulmuşların videoları... Bunlar istər qısqanclıq, istərsə də digər hissləri verir insanlara. Hər kəs də özünəməxsus şəkildə qəbil edir; ya xoş arzularını bildirir, ya bəxtəvərlik verir və sair. Lakin həsəd, paxıllıq, qısqanclıq bunlar arasında ən çox müşahidə edilləndir.

## Həyata baxışımızı dəyişək...

Həyata necə baxarıqsa, ondan alacaqlarımız da elə olacaq, sözsüz ki... Belə isə həyata nikbin duyğularla baxmaq lazımdır. Kiminsə olanına qısqanclıqla deyil, "bir gün mənim də olacaq" arzusu ilə. Bu arzularla da həyata teleskopla baxırsanmış kimi baxmaq lazımdır ki, sevgini ona verə biləsən. Bu sevgi isə əvəzində sənə gözəl bir həyat bəxş edəcək.

Yox, əgər, başqalarına qısqanclıq hissi, gözlərimizi qıyıb mikroskopla baxırmış kimi baxarıqsa, bu zaman həyatdan küsdüyümüz kimi, həyat da bizdən küsəcək. Nəticədə heç nəyin sahibi olmayacağıq.

Belə isə həyata teleskopla baxaq, mikroskopla deyil...

***Mətanət Məmmədova***

# İqbal Ağazadə Əli Kərimli və İlqar Məmmədovu ideya oğurluğunda günahlandırdı



***Dağıdıcı müxalifətin rüsvayçı vəziyyətində olan partiya sədrləri ağıllı ideya və təkliflər irəli sürə bilmədiklərindən gözlərini dikiblər onun-bunun ağzına. Hansı ki, o ağızlardan çıxan sözləri, irəli sürən təklifləri xarici anti-Azərbaycan dairələri səsləndirirlər. Fərq etmirlər, əsas odur ki, qulaqları yeni fikir, ideya eşidir. Bir də ki, həmin xarici maraqlı dairələrin Azərbaycanın gözləri kor, qulaqları kar olan müxalifət liderləri ilə geniş və əhatəli əlaqələri mövcuddur. "Əl əli, əl də üzü yuyar" el məsəlinə uyğun olaraq hər iki tərəf bir-birindən bəhrələnirlər.***

Xaricilər ideya irəli sürür, göstərişlər verir, Əli Kərimli, İlqar Məmmədov, Cəmil Həsənli, Tofiq Yaqublu kimi məxluqlar da onları yerinə yetirirlər. Qarşılığında öz əyinbaşlarını sahmana salmaq, bahalı evlər, maşınlar almaq üçün maliyyə yardımları əldə edirlər. Dağıdıcı müxalifətə fərq etmir, tapşırıq necədir, göstəriş hansı yöndədir. Əsas odur ki, işləri var, bekar deyillər. İndi də başlayıblar ermənilərin "humanitar böhran" şousundan maraqları üçün istifadə etməyə. Nədən ki, xarici ağaları belə tapşırıq verib. Hazırkı məqamda Azərbaycanın maraqlarından çıxış etməkdənsə, ağızağıza verib, milli mənafeymizə zidd açıqlamalar verir, addımlar atırlar. Ermənistanın revanşist qüvvələrinin, Makron və onun əshabəsi kimi ermənipərəst qarğaların ağızlarından nə üfunət ifraz olunursa, onları Azərbaycanın dağıdıcı müxalifəti təkrarlayır. Sanki eyni mərkəzdən idarə olunur və eyni tezisi ifa edirlər. Fikir verin, Parisin meri Ann İdalqonun başçılığı altında Xankəndinə humanitar yardım gətirməsinə və merin Laçın sərhəd keçid məntəqəsi yaxınlığında selfi çəkdirib, fotoqraflar qarşısında müxtəlif pozalarda şəkillər çəkdirməsinə Azərbaycanın dağıdıcı müxalifəti bir kəlmə də olsun etiraz bildirmədi. Bu məsələdə Əli Kərimlinin, İlqar Məmmədovun, Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, Tofiq Yaqublunun susmaları onların ermənilərdən betər erməni olduqlarını göstərir. Həm də təsdiq edir ki, həqiqətən bu məxluqlar erməni lobbisi tərəfindən maliyyə yardımları alırlar.

### "Bəylər, sizin olmayan ideya üstündə dava etməyin. Müəllif mən idim, ikiniz də yararlanın"

Bu arada təəccüb yaradan məsələlərdən bir də ondan ibarətdir ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan erməni əsilli sakinlər üçün 40 ton un göndərməsini dağıdıcı müxalifət öz ideyaları kimi təqdim etməyə çalışırlar. İddia edirlər ki, guya bir qədər əvvəl Ağdam-Xankəndi yolu vasitəsi ilə ermənilər yüklərin çatdırılmasını təklif ediblər. Hətta AXCP sədri Əli Kərimli, REAL partiyasının sədri İlqar Məmmədov söz duelinə çıxaraq hər biri ideyanın özü tərəfindən irəli sürdüyünü bildirirlər. Bu, siyasi abırsızlıq nümunəsidir, Azərbaycan dövlətinin strateji addımını öz adlarına çıxarmağa çalışırlar. İkincisi də, "mən demişdim" deyib, bir-biri ilə primitiv yarışa girirlər. Bunların siyasət anlayışı yoxdur. Əli Kərimlinin sözçüsü Fuad Qəhrəmanlı utanıb-çəkinmədən qeyd edib ki, AXCP hakimiyyətə Ağdam-Xankəndi yolu vasitəsi ilə ermənilər yüklərin göndərilməsini təklif etmişdir: "Yadınızdadırsa, bir müddət öncə burada "Azərbaycan iqtidarına təklif" adlı yazı yazaraq hakimiyyətə təklif etmişdik ki, Ağdam-Xankəndi yolu ilə Qarabağdakı ermənilərə humanitar yardım göndərməklə ermənilərin Azərbaycan əleyhinə başlatdığı kampaniyaya cavab verilsin. O yazıda belə bir addımın ermənilərin Laçın yolu ilə bağlı apardıqları kampaniyaya necə təsir edəcəyini ətraflı izah etmişdik. Bu gün bəlli olur ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Xankəndi-Ağdam yolu ilə Qarabağ ermənilərinə 40 ton humanitar yardım göndərir. Deməli ki, iqtidar bu məsələdə doğru qərar verərək təklifimizi qəbul edib".

Bu arada Ümid partiyasının sədri İqbal Ağazadə Əli Kərimli ilə İlqar Məmmədovu onun ideyasını oğurlayıb, adlarına çıxarmağa çalışmaqda ittiham edib: "Mənim 25 iyulda hökumətə rəsmən ünvanladığım və efirdən söylədiyim təklifin ideya müəllifliyi üstündə söz davasına çıxıblar. Bəylər, sizin olmayan ideya üstündə dava etməyin. Müəllif mən idim, ikiniz də yararlanın". İ.Ağazadə həmfikirlərinə xatırladıb ki, bu təklif veriləndə hələ Ermənistan Laçın keçid məntəqəsinə yük maşınları göndərməmişdi: "Əslində, xarakterimə uyğun deyil bu tipli statuslar yazmaq, lakin bəzən məcbur olursan".

### İlqar Məmmədovun Əli Kərimlinin ətəyindən yapışması təəccüb doğurur

Söz yox ki, vəziyyət dəyişib, proseslər maraqlarına cavab verməyəndə dost düşmənə, düşmən isə dosta çevrilir. Dağıdıcı müxalif partiya sədrləri siyasi fəaliyyətləri dövründə qaydalara riayət ediblər. Dünənə qədər rəqib olan, bir-birini tənqid və təhqir edənlər bu gün eyni mövqedən çıxış edirlər. Xatırlayırsınızsa, bir qədər əvvələ qədər REAL partiyası ilə AXCP arasında kəskin və amansız söz savaşları gedirdi. Partiya funksionerləri sosial şəbəkələrdə bir-birlərinə qarşı ən ağır ittihamlar irəli sürürdülər. Münaqişənin səbəbi isə 2018-ci ilə gedib çıxır. Həmin vaxtlarda İ.Məmmədov həbsdə idi. Müxalifət düşərgəsində üstün hörmətə malik idi. O zaman sosial şəbəkələrdə "Əli Kərimli, yoxsa İlqar Məmmədov?" tipli reytinq sorğuları keçirildi. Nəticədə, İ.Məmmədov Ə.Kərimlidən daha çox səs topladı. Ə.Kərimli isə susmağa üstünlük verdi. Çünki İ.Məmmədovu "siyasi məhbus" kimi təqdim edərək, bir sıra xarici təşkilatlardan qrantlar alırdı. İ.Məmmədov azadlığa çıxdıqdan sonra da "Milli Şura"nın mitinqinə dəvət edildi. Lakin bütün bunlardan sonra tərəflərin arasında kəskin mübarizəyə start verildi. Yaranan qarşıdurmalar şiddətləndi və nəhayət çərçivədən çıxaraq, təhqirlərlə, söyüşlərlə əvəzləndi. Bu gün isə tərəflər olanları unudaraq eyni mövqedən çıxış etməyə çalışırlar. Bunun bir səbəbi hər iki partiyanın Ədliyyə Nazirliyindən təkrar qeydiyyata alınmaq məsələsində ciddi problemlərlə üzləşmələridirsə, digər səbəbi isə hər iki təşkilatın maliyyəsinin Avropanın qaranlıq dairələri tərəfindən verilməsidir. Lakin bu məxluqların eyni yolu birlikdə getmələri uzun çəkməyəcək. Maraqları toqquşduğu məqamda yenidən bir-birinə düşmən kəsiləcəklər. Və yenidən bir-birini söyüb, təhqir edib, gözdən salmağa çalışacaq.

***İ.ƏLİYEV***

# Erməni siyasətçiləri ölkəni məhvə sürükləyir

*Bakı isə hələ ki, səbir edir və belə davam edərsə, Ermənistan daha ağır vəziyyətlərlə qarşı-qarşıya qalmalı olacaq*





Hələ də doğru-düzgün yol tapa bilməyən, parçalanan Ermənistan cəmiyyətində baş verən xaotik vəziyyət səngimək bilmir və düşmən ölkənin siyasi dairələrində qarşılıqlı çəkişmələr davam edir. Lakin Ermənistanın üzləşdiyi kəskin böhranda bir-birilərini ittiham edənlər daha çox baş nazir Nikol Paşinyanı günahlandırırlar.

### Suren Surenyants: "Qarabağ dövlət qurumu kimi beynəlxalq siyasətdə praktiki olaraq mövcud deyil"

Bu arada, erməni politoloq Suren Surenyants özünün Teleqram kanalında ölkəsinin başına açılan oyunlardan narahat olduğunu deyib. Onun fikrincə, dövlətçiliyin süqutu da məhz belə baş verir. "Qarabağ dövlət qurumu kimi beynəlxalq siyasətdə praktiki olaraq mövcud deyil və Qarabağ erməniləri həll yolları axtarmaq əvəzinə toqquşmalara səbəb ola biləcək daxili çəkişmələrlə məşğuldur", - deyə o bildirib.

Surenyants sülh gündəliyində Rusiyaya aid edilən təkliflərə də toxunub və qeyd edib ki, ruslar Qarabağın "müstəqilliyi", hətta "siyasi muxtariyyətini" belə nəzərdə tutmurlar: "Orada bələdiyyə və mədəni muxtariyyətin yalnız zəif komponentləri var. Lakin Rusiyanın təklifləri qüvvələr balansına əsaslanır. Amma güman etmirəm ki, bundan sonra kimsə bizə daha yaxşı təklif versin. Zaman da əleyhimizə işləyir. Üç aydan sonra bizə ən pis təklif gələcək, ya da heç onu da etməyəcəklər. Ehtimal ki, həmin müddətə qədər Qarabağda daha erməni qalmayacaq".

### Boris Aruşanyan: "Ermənistan bəyan etməliydi ki, rəsmi İrəvan Qarabağın "müstəqilliyini" tanımağa və təhlükəsizlik təminatı verməyə məcburdur"

Digər erməni politoloqu, Boris Aruşanyan isə deyib ki, Ermənistanın Qarabağı Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tanıması danışıqlarda erməni tərəfinin mövqeyini xeyli zəiflətdi və bu, Ermənistanın tələbi ilə çağırılan BMT Təhlükəsizlik Şurasının sonuncu iclasında açıq şəkildə hiss olundu. "Qarabağ probleminin BMT Təhlükəsizlik Şurasında müzakirəsi ümumilikdə müsbət addımdır. Lakin belə bir şəraitdə nəzərə almaq lazımdır ki, fövqəldövlətlər məsələnin həllini, adətən, zəif tərəfin hesabına təmin edir. Bu gün isə Ermənistan zəif tərəfdir", - deyə o bildirib.

Onun fikrincə, məhz buna görə də Ermənistan hakimiyyəti BMT Təhlükəsizlik Şurasına müraciət etməzdən əvvəl nəzərə almalı idi ki, onların Azərbaycanın ərazi bütövlüyünü tanıması danışıqlarda mövqelərini əhəmiyyətli dərəcədə zəiflədəcək: "BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistan bəyan etməliydi ki, rəsmi İrəvan Qarabağın "müstəqilliyini" tanımağa və təhlükəsizlik təminatı verməyə məcburdur. Belə sərt mövqe qarşısında dünya ictimaiyyəti susacaqdı".

Təxribatçı bəyanatlardan doğan təhlükə

Erməni siyasətçinin fikrincə, Ermənistan Qarabağın "müstəqilliyini" tanıyarsa, bütün məsələlər həllini tapacaq. Lakin buradan da görünür ki, belə təhlükəli fikir ölkənin süqutunu sürətləndirir. Əslində, Aruşanyan da bunun nə ilə nəticələnəcəyini yaxşı anlayır və sadəcə, Ermənistanın düşdüyü hazırkı vəziyyətlə barışmaq istəmir. Nəyin bahasına olursa-olsun, itirdikləri mövqeyi geri qaytarmaq üçün çalışan erməni siyasətçilər bu cür təxribatçı bəyanatlar verməklə erməni cəmiyyətində çaşqınlıq yaradırlar. Bakı isə hələ ki, səbir edir və belə davam edərsə, Ermənistan daha ağır vəziyyətlərlə qarşı-qarşıya qalmalı olacaq. Hətta xəritədən bu dövlətin adının silinməsinə qədər...

***Afət Tahirqızı***

*Xəzər Strateji Tədqiqatlar İnstitutunun (Rusiya) İnstitutunun baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibədə Laçın yolu ətrafındakı son hadisələri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı ekspert: "Qarabağdakı separatçılar erməni əhalini girov saxlayır"





**-Azərbaycan Qırmızı Aypara Cəmiyyəti Ağdam-Xankəndi yolu ilə Qarabağın erməni sakinlərinə 2 yük maşını humanitar yardım istiqamətləndirdi. Separatistlər isə Azərbaycanın bu addımının yalnız problemlərin dərinləşməsinə töhfə verəcəyini bildirdilər. Belə görünür, separatçılar bu yardımı Qarabağın erməni əhalisinə vermək niyyətində deyillər.**

- Azərbaycandan humanitar yardımın tədarükü sağlam, məsuliyyətli bir dövlətin sağlam bir jestidir. Bundan əlavə, rəsmi Bakı dəfələrlə Qarabağın erməni əhalisini öz vətəndaşları kimi baxdığını bəyan edib.

Azərbaycan kimin kim olduğunu göstərdi. Mümkün qədər dünya birliyinə Qarabağ ermənilərinə ərzaq tədarükü üçün Laçın yoluna alternativ bir yol olduğunu göstərdi, lakin orada dava başqa davadır. Separatçıların Azərbaycan ərazisinin bu hissəsini öz nəzarətlərində saxlamaq və bu bölgə üzərinə parazitləşmək, qanunsuz əməllərini davam etdirmək üçün çıxardığı oyunlar davam edir. Axı, xalq adından beynəlxalq məkanda bir nümayiş göstərmək, Qarabağ münaqişəsinin davam etməsi çirkli oyunlarla milyonçu olmuş separatçı liderlərin xeyrinə, Azərbaycandan kömək almağa ümidli olan hər kəsin də zərərinədir.

Erməni sakinləri bu qrup haqda özlərini girov kimi saxlayan bir qrup kimi danışırlar. Bu qrup cəmiyyətdə və beynəlxalq ictimaiyyətdə bu günə qədər Qarabağın Bakının nəzarətində olmayan hissəsindəki "əzab" mövzusunu tətikləyən, Azərbaycanofobiyanın şişməsini istəyənlərdir. Eyni vaxtda həm bu mövzuda hərəkət edirlər, həm də bu ərazidə yaşayan erməni əhalisi, dəbdəbəli toylar, şənliklər düzəldir.

Bakı yenidən Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına sülh əlini uzatdı. Ancaq görünür, sülhün bu əli yenidən rədd ediləcəkdir. Separatçı anklavda hakimiyyəti qəsb edən separatçıların liderləri, əhalinin ehtiyaclarına əhəmiyyət vermirlər. Bütün bu növbəti şousun arxasında separatçılar və İrəvanda, eləcə də beynəlxalq erməni diasporundakı hamilər dayanır. Bu separatçı rejimin qorunub saxlanmasına çalışırlar, bu da onlara daha da zəngin olmağa imkan verəcəkdir.

Əminəm ki, Qarabağda yaşayan ermənilərin çoxu Azərbaycandan humanitar yardım almaq istəyərlər. Ancaq belə bir fürsətdən məhrumdurlar, çünki separatçı liderlər onları manipulyasiya edir, qorxudurlar. Bir qayda olaraq, kiminsə köməyə ehtiyacı varsa, onu qəbul edirlər. Separatçıların fikrincə, Qarabağın nəzarətsiz hissəsində humanitar bir fəlakət müşahidə olunursa belə adi əhalinin Azərbaycandan kömək alması qadağandır, o zaman bu onların öz terminologiyasından istifadə etsək könüllü aclıq aksiyası sayılır. Bütün bunlar bir daha sübut edir ki, separatçılar Qarabağın blokadasının, problemlərini tamamilə süni yaradırlar, xüsusi olaraq, əzabın mövzusunu daha da tətikləyir, antiAzərbaycan cəbhəsini gücləndirməyə çalışırlar. Qarabağ ermənilərinin Azərbaycan Respublikasının hüquqi sahəsində real reinteqrasiyasının qarşısını almaq üçün bir sıra qərb ölkələrinin siyasətçiləri Azərbaycana qarşı kütləvi təzyiqləri möhkəmləndirməyə çalışır.

Lakin Qarabağ ermənilərinin Azərbaycanın hüquqi məkanına inteqrasiyası separatçı liderlərin, sadəcə, siyasi lövhədən uçacağına gətirib çıxaracaq və bununla da onların işi məhv ediləcəkdir. Və bu baxımdan, Bakı və Qarabağın erməni birliyinin nümayəndələri arasında birbaşa əlaqələrdə hər hansı bir dialoq və hər hansı bir müsbət tendensiya cəhdlərinə mane olmaq üçün güclü bir motivasiya var. Buna görə həm İrəvan, həm də separatçılar Qarabağ ermənilərinin Azərbaycan tərəfindən "soyqırımı" mövzusunu oynayır, mövcud status-kvonu qorumaq üçün bunu davam etdirəcəklər.

Qarabağ ermənilərinin reinteqrasiya problemi həll edilməlidir, çünki Qarabağ Azərbaycandır. Bu, dünyada hər kəs tərəfindən tanınır.

Qarabağ erməniləri sadəcə bu anklavın başında olan separatçıların inzibati asılılığından çıxmağı təmin etmək üçün tədbirlər görməlidirlər.

Qarabağın erməni əhalisinin Laçın sərhədi vasitəsilə keçid nümunəsinə baxın, onlar, səmimi şəkildə, təbəssümlə, Azərbaycan sərhədçiləri ilə necə tez-tez ünsiyyətdə olduqlarını görürük. Azərbaycan tərəfdən onlara münasibət nəzakətli və son dərəcə əlverişlidir. Buna görə də əminəm ki, separatçılar, radikallar və Ermənistan hakimiyyəti orqanları mane olmasaydı əhalinin Azərbaycanın hüquqi məkanına reinteqrasiyası daha sürətli baş verərdi və Qarabağ erməniləri Azərbaycandan hər hansı bir yardımı qəbul edəcəklər. Çünki normal yaşamaq istəyirlər.

**- Laçın sərhəd-keçid məntəqəsinin qarşısında Azərbaycanla razılaşdırılmayan erməni yük maşınları bir aydan çoxdur ki, dayanmışdır. İrəvanın bu cür hərəkətlərinin məntiqi nədir? Axı, əsas odur ki, bu ehtiyac varsa, lazım olan hər şeyi hər hansı yolla çatdırmaq olmalıdır...**

- İrəvandan Laçın yoluna Azərbaycanla razılaşdırılmadan nəsə göndərmək əvvəlcədən bir siyasi propoqanda idi və humanitar hərəkət deyildi. Bunun humanitar malların real çatdırılması ilə heç bir əlaqəsi yox idi. Bu, İrəvanın məqsədi deyildi.

Axı, Ermənistan hakimiyyəti bu humanitar yardımı Bakının təklif etdiyi Ağdam-Xankəndi marşrutu ilə göndərilməsinə heç kim mane olmurdu. Bunu etmək istəmədilər, çünki bu, beynəlxalq aləmdə Azərbaycanı gözdən salmaq üçün məqsədyönlü bir tədbir idi.

Avropa İttifaqının müşahidə missiyasının üzvlərinin, habelə Azərbaycanı vaxtaşırı tənqidi tənqid edən dövlətlərin xarici səfirləri, bu zonada belə bir vəziyyəti necə tətiklədiyini xatırlayırıq.

**- Paris Meriyasının rəhbərlik etdiyi Fransadan gələn yük maşınlarının Laçın yolundakı erməni yük maşınlarına qoşulmasının arxasında nə dayanır?**

- Fransa müstəmləkə ölkələri kimi saxladığı Afrika əhalisinin kütləvi əzabında günahkardır. Paris bu humanitar yardımı, ilk növbədə, Afrikaya- Fransız müstəmləkəçiliyindən ən çox zərər çəkən ölkələrə - Əlcəzairə, Nigeriyaya və s. göndərsə yaxşı olar. Fransız siyasətçiləri həmişə Qarabağda piar üçün gedirlər. Xatırladım ki, Fransa prezidentliyinə namizədlər də Fransada yaşayan erməni lobbisinin siyasi və maliyyə dəstəyini cəlb etmək üçün oraya gəldilər. Buna görə də, indi Fransanın "humanitar yardım" oyunu sadəcə ucuz piardır.

Yenə onlar gələcək, qışqıracaqlar. Ermənilər üçün həyatlarını verəcəklərini hər yerdə qışqırırlar. Ancaq verməzlər. Əvəzində onlar bir neçə tranş alacaqlar. Bu baxımdan, Vaşinqtondakı Capitol Hill-də ən vacib erməni lobbiçilərindən biri olan Robert Menendesin gözəl bir hekayə ilə sona çatan son dövrlərini xatırladım. Məlum olub ki, onun qızıl bir anbarı var imiş və erməni arvadı tərəfindən satılıb. Və hazırda cütlüyün münasibətləri üzərindən korrupsiya halı ilə bağlı istintaq aparılır.

Bu, yaxşı bir göstəricidir. Ən azı müxtəlif ölkələrdə və müxtəlif platformalarda təxirə salınan qətnamələrin və anti-Azərbaycan tamaşalarının hansı səbəblə necə qəbul olunduğu aydın olur. ABŞ-dakı erməni diasporunun iradəsi və istəkləri ilə ödəniş edən Men Kindes kimi insanlar var.

**- Ermənistan Xarici İşlər Nazirliyi bəyan edib ki, 9 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata görə, Rusiya sülhməramlıları Laçın yolu boyunca fasiləsiz hərəkəti təmin etməli idi...**

- Rus sülhməramlı kontingentinə bu "cənabların" nəsə öyrətmək cəhdi lazım deyil. Bunlar hamısı İrəvanın rəsmi nümayəndələrinin çirkli siyasi oyunundan başqa bir şey deyil.

**- Laçın Sərhəd Postunda Azərbaycan sərhədçiləri 3 erməni futbolçusunu axtarılanların siyahısından aşkar edib tutdular. Bildiyiniz kimi, 2021-ci ildə Azərbaycanın məhkəməsi onları Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən təqdim olunan videolarla təsdiqlənən dövlət bayraqları ilə ayaqqabılarını sildiklərinə görə məhkum elan elan edib. Ermənistanda bu vəziyyət qaçırılma kimi təfsir edildi və media indi vətəndaşların İrəvanın ortasında da qaçırılacağı fikrini təşviq etməyə başladı...**

- Qanunun normaları var. Saxlanılan şəxslər cinayət pozuntularını ediblər. Və onlar ölkənin qanunvericiliyinə uyğun olaraq saxlanılıblar. Azərbaycan, qeyri-qanuni bir hərəkət edən və peşman olduqlarını, yaşa görə vəziyyətlərini nəzərə alaraq cinayət məsuliyyətini inzibati məsuliyyətlə əvəz etdi. Onlar 10 gün həbsdən sonra sərbəst buraxılacaqlar. Bu, Azərbaycan qanunvericiliyinin pozula bilmədiyi, məsuliyyət daşıyacaqları üçün bu dərs olacaqdır. Demək istəyirəm ki, çox yumşaq bir şəkildə cəza aldılar. Azərbaycan insani bir jest etdi. Azərbaycan ümumiyyətlə bir insanpərvər, sülh dövlətidir və vaxtaşırı bunun nümunələrini görürük.

Erməni mediası, siyasətçilər yenidən bu şəxslərin "oğurlandığını" və s iddia edirlər. Eyni zamanda, hətta bir çox erməni ekspertləri də bunun yalan və təbliğat olduğunu etiraf edirlər. Hər şeyi alt-üst etmək üçün gerçəkliyi təhrif etməyə davam edəcəklər.

Qanunvericilik var, beynəlxalq hüquq, ərazi bütövlüyü var, bu, hadisələrin və faktların qiymətləndirilməsinə davam etmək lazımdır.

Eyni hekayə, Laçın SBM-də Qarabağ döyüşçüsü Vaqif Xachatryanın tutulması ilə əlaqədar aparılan təbliğatla da müşahidə olundu. Və sonra erməni təbliğatı, onun demək olar ki, müqəddəs olduğunu qışqırdı.

Müharibə cinayətləri üçün məsuliyyət məhdudiyyəti yoxdur. Bu ümumiyyətlə qəbul edilmiş dünya təcrübəsidir. 90 yaşında yaşlı nasist də mühakimə olunur. Məsələn, İsraildə müharibə cinayətkarlarının necə mühakimə olunduğunu görürük.

Və Azərbaycanda axtarılan cinayətkarların siyahısı var. Məsələn, Xocalı soyqırımını törədənlər axtarır. Həm də oxşar hərəkətlər edən hər hansı digər şəxslər də müharibə cinayətlərinə görə mühakimə olunacaqlar.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
1 sentyabr
2023-cü il

# Övladlarımızı hansı sözlərimiz uğursuz edir?



"İnsanın uğuru nailiyyətləri ilə əlaqədardır. Biz öz uğurlarımıza görə özünüqiymət səviyyəmizi artırırıq və bu uğur, nailiyyət yaşdan-yaşa, əmək fəaliyyətinə görə dəyişir. Məsələn, 3-6 yaş arası uşaqların oyunlarda qazandıqları uğurlar, yüksəkliyə dırmaşmaq, oyunda birinci olmaq və s. bu kimi hallardır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq, psixoterapevt Fatimə Bayramova deyib.

Onun sözlərinə görə, təəssüf ki, toksik münasibət quran valideynlər bu uğurların inkişafının qarşısını alır, uşaqları hərtərəfli şəxsiyyət kimi yetişdirmək üçün bəzi münasibətləri gözdən keçirmək lazımdır:




Perfeksionist valideynlər

Onlar uşaqları həddən artıq yükləyirlər, gözləntiləri çox yüksək olur, bəzən uşağın gücünə, istedadına, biliyinə görə deyil, "ən yaxşısı" naminə uşağa daim hər şeyin mükəmməl olmalı anlamını ötürür. Uşaqda stress, qorxu, gərginlik, frustasiya və s. bir çox neqativ hisslər və fikirlər yaradır. Məsələn, abituriyentlərin çox zamanı problemi elə valideynin yüksək gözləntiləri ilə bağlı olur. Nəticədə uşaq imtahan stressi,həyəcanı yaşayır.

Digərləri ilə müqayisə edən valideynlər

Təsəvvür edin ki, yoldaşınız sizi başqa bir insanla müqayisə edərək pisləyir, onu isə tərifləyir. Keçirdiyiniz əsəb, kədər hələ özünüqiymətləndirməniz aşağıdırsa, bu sizə daha da mənfi təsir edir. Uşaqlarda da eynidir. Müqayisə onların özünədəyərini, qiymətini aşağı salır. Nəticədə, utancaqlıq, özünüifadə edə bilməmə, daim özünütəsdiq və ya sübut etmək və s. hallar yaranır.

Uğurunu önəmsəməmə

Bəzi toksik valideynlər uşağın uğurunu kiçildir, ya da əhəmiyyət vermir, gələcək planlarını ciddiyə almır. Uşağın motovasiyasını aşağı salır, uşaq üçün artıq əhəmiyyətsiz məna kəsb edir.

Uşağı özündən asılı hala salmaq istəyən narsist valideynlər

Onlar öz eqolarını daim zirvədə tutmaq üçün, uşağın məhz ondan asılı qalmasını istədiyi üçün onun şəxsi uğurlarına önəm vermir, çalışır ki, uşaq müstəqil nəyəsə nail olmasın.

**A. Vəli**

## 90 yaşlı Yuiçiro Miura əlil arabası ilə Fuji dağının zirvəsinə qalxdı



*Yaponiyada 90 yaşlı Yuiçiro Miura əlil arabası ilə Fuji dağının zirvəsinə qalxıb. SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, o ailəsi və bir qrup dostlarının köməyi ilə Fuci dağına çıxıb. Gəzməkdə çətinlik çəkən Yuiçiro, alpinizm üçün xüsusi olaraq hazırlanmış əlil arabasına bağlanan kəndirlərlə zirvəyə aparılıb. Qeyd edilib ki, Yuiçiro yerli vaxtla saat 07:20 radələrində pik nöqtəsinə çatıb.*

Yapon alpinist 2013-cü ildə, 80 yaşında Everest zirvəsinə qalxan ən yaşlı insan kimi qeydə alınmışdı. Yaponiyanın ən hündür dağı olan Fujinin hündürlüyü 3776 metrdir.

**Ayşən**


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Azərbaycanda cəmi 2-3 dondurma istehsalçısı standartlara uyğundur"



*"Dondurma mövsümü başlayandan bəri bizə istehlakçılardan həftədə 3-4 zəng gəlir. Suallar açıq dondurmalar, saxlanılma qaydaları, qiymətlər və s. ilə bağlı olur". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, dondurma süd məhsuludur və qaymaq dadı verməlidir: "Dondurma istehsalında mütləq kərə yağından istifadə olunmalıdır. Çox nadir hallarda, müəyyən şərtlər daxilində kakos yağından istifadə edilir.*

Hazırda Azərbaycanda 20-dən çox dondurma istehsalçısı var. Lakin onlar arasında çox az sayda, cəmi 2-3 standartlara uyğun dondurma istehsalçısı mövcuddur. Təsadüfi deyil ki, Azad İstehlakçılar Birliyi ABŞ İnkişaf Agentliyinin layihəsi çərçivəsində 10 il öncə yalnız bir dondurma istehsalçısına qida təhlükəsizliyi nişanını şamil edib. Hazırda da bu nişan həmin dondurmaların üzərində var.

Artıq 3 ildir ki, Azərbaycan Türkiyədən maraş dondurması daxil olub və ölkənin ən ucqar nöqtələrinə qədər gedib, çıxıb. Bu dondurmalar barədə isə əhalinin fikirləri birmənalı deyil. Bu dondurmaların keçi südündən hazırlandığı bildirilir, lakin üstün cəhətlərinin nə olduğu bilinmir. Barədə Azad İstehlakçılar Birliyində məlumat çox azdır və bu dondurmalar açıq dondurmalar olduğundan son istifadə müddəti məlum deyil.

Xaricdən gətirilən dondurmalar yerli məhsullardan heç də üstün deyil. Onların yaxşı qablaşdırılmasına fikir vermək lazım deyil, çünki xaricdən gələn dondurmalar kimyələşdirilmiş olur. Əgər dondurmanın qabı əzilibsə, bu gətirilən zaman temperatura məruz qaldığını və əriyib yenidən donduğunu göstərir. Bu isə faydalı dondurma hesab olunmur".

**Səbinə Hüseynli**



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000